

İordaniyalı akademik: “Azərbaycan bu təcavüzkar siyasəti iflasa uğradıb və erməni iddialarına son qoyub”

3



# Səs

№ 200 (6400) 2 noyabr 2021-ci il. Qiyməti 40 qəpik



# BÖLGƏLƏRİN inkişafı dövlətin diqqət mərkəzindədir

2

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də İsmayıllı və Şamaxı rayonlarına səfər ediblər

# Sorosun “sağ əli” Delina Fico: Azərbaycanda nə edir?

Bu ünsür müxtəlif "qrant layihələri" adı altında mütəmadi olaraq USAİD-dən milyonlarla dollar qazanır və ölkəmiz əleyhinə fəaliyyət göstərir



Sorosa məxsus ”Şərq-Qərb İdarəetmə İnstitutu” təşkilatının və ona faktiki rəhbərlik edən Sorosun hərtərəfli mənada ən yaxın adamı olan Delina Fico adlı bir ünsürün...

7



## Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasında fəal tərəfdaşlıq mövcuddur

Tahir Budaqov Sara Maykl ilə görüşüb

Noyabrın 1-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Dünya Bankının Azərbaycan üzrə Ölkə Meneceri xanım Sara Maykl ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüş zamanı son illər ərzində Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasındakı fəal tərəfdaşlıq nəticəsində ikitərəfli əməkdaşlığın inkişafına yönəlmiş bir çox görüşlərin təşkil olunduğu qeyd edilmiş, bu tərəfdaşlıq...

5

## Azyaşlılara qarşı zorakılıq hallarında günahkar kimdir?



9



Ukraynalı politoloq: “Azərbaycanda baş vermiş hadisə gələcəkdə bütün türk dünyasına təsir göstərə bilər”

Oktyabrın 26-da Azərbaycanda baş vermiş hadisə gələcəkdə təkcə Türkiyə...

5

## Ermənistanda vəziyyət ağırlaşır, kommunikasiyaları açmağa məcburdur





13

Xəbər verdiyimiz kimi, Ermənistanın baş naziri Nikol Paşinyan Milli...

ANALİTİKA

## “BARSELONA” ALMAN QAPIÇISINI DA SATIŞA ÇIXARIR!



"Barselona" futbol klubu, elə bil Barselonada "bazar açıb". Məsələ bundadır ki, komanda rəhbərliyi bu dəfə qapıçı Mark-Andre ter Ştegeni satmağa...

16



## 2030-cu ildə dünyanı və ölkəmizi nə gözləyir?

15

Analitiklər: İqtisadi güc balansı dəyişəcək, neft ucuzlaşacaq, əhali 8,5 milyardı keçəcək, su və ərzaq...



## BMT açıqladı: Son yeddi il tarixdə ən isti illər olub

12

Oktyabrın 31-də Qlazqoda BMT-nin iqlim konfransı işə başlayıb. Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) bu münasibətlə...

# BÖLGƏLƏRİN inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də İsmayıllı və Şamaxı rayonlarına səfər ediblər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də İsmayıllı rayonunda səfərdə olublar.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın ümummilli lideri Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.**

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov rayonda görülən abadlıq-quruculuq işləri barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Bildirilib ki, bu il İsmayıllı şəhərinin Babək küçəsində ideya və üslub baxımından fərqli abadlıq işlərinə start verilib. Şəhərin Heydər Əliyev Parkına aparan, uzunluğu 400 metrə yaxın olan küçəsindəki abadlıq işləri rayonun gənc rəssamlarının birgə ideyaları əsasında həyata keçirilib. Küçədə yerləşən həyətyanı sahələrin hasarları müəyyən hündürlüyə çatdırılıb, divar üzlükləri təmir olunub, hasar damlarına keramik rəngli dəmir örtük vurulub. Ümumi görünüşə rəng qatmaq üçün darvazalar əlvan rənglərlə boyanıb, divarların fasadında dekorativ pəncərələr, skamyalar və gül dibçəkləri yerləşdirilib. Yolboyu divarlar küçə rəssamlıq sənət nümunələri ilə bəzədilib. Xüsusi memarlıq görünüşünü özündə ehtiva edən abadlıq işləri həm rayon sakinlərinin, həm də İsmayıllıya gələn qonaqların marağına səbəb olub.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıya səfər çərçivəsində Lahıc qəsəbəsində olublar. Belə ki, dövlətimizin başçısı və birinci xanım qəsəbəni gəzib, sakinlərlə söhbət ediblər. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar.

Qeyd edək ki, 2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində səfərdə olarkən sakinlər Bədöyün məscidinin təmiri ilə bağlı müraciət etmişdilər. Birinci vitse-prezident məsciddəki vəziyyətlə tanış olmuş və burada əsaslı təmir işlərinin aparılması barədə tapşırıq vermişdi.

Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov məlumat verdi ki, ötən müddət ərzində 1791-ci ildə inşa edilən Bədöyün məscidində və ətraf ərazilərdə Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa-təmir işləri aparılıb. Görülən işlər nəticəsində məscid orijinal formasına uyğun bərpa edilib. Məscidin minarəsi yenidən qurulub, dəstəmazxana inşa olunub. Məscidin qadınlar üçün nəzərdə tutulan hücrə və şəbəkələri əvvəlki görünüşünə qaytarılıb.

Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunda başlanğıcını Muğanlı-İsmayıllı yolunun 17-ci kilometrliyindən götürən Basqal-Sulut avtomobil yolunun açılışında iştirak edib. Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Basqal-Sulut avtomobil yolunun inşası Prezident İlham Əliyevin ötən ilin iyulunda imzaladığı Sərəncama uyğun olaraq aparılıb. İki hərəkət zolaqlı yol dörd min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. Basqal, Qıçatan, Tağlabiyan, Kəlfərəc, Zeyvə, Kürdüvan, Xankəndi, Mücü, Sərsurə, Kələzevə və Sulut kəndlərini birləşdirən avtomobil yolunun uzunluğu 30,1 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Yol üzərində 4 körpü tikilib və zəruri yol infrastrukturu yaradılıb.

Dövlətimizin başçısına İsmayıllı rayonunun Hacıhətəmli-Gideyli-Kürd Eldarbəyli avtomobil yolunda aparılmış işlər barədə də məlumat verilib.

Qeyd edildi ki, uzunluğu 13 kilometr olan bu yol uzun müddət təmir olunmadan istifadə edildiyindən və təbii amillərin təsirindən yararsız vəziyyətdə olub. Hazırda isə yol müasir səviyyədə yenidən qurulub. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq inşa edilən yol 4 minə yaxın əhalinin yaşadığı 3 yaşayış məntəqəsi arasında gediş-gəlişi rahatlaşdıracaq, kənd təsərrüfatının, xüsusən də üzümçülüyün inkişafına töhfə verəcək. Dövlətimizin başçısına Muğanlı-İsmayıllı-Qəbələ yolunun tikintisi barədə də məlumat verildi. Prezident İlham Əliyev Basqal-Sulut avtomobil yolunun açılışını etdi.

Noyabrın 1-də İsmayıllı şəhərində Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binasının açılışı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Bildirildi ki, indiyədək bu mərkəzə 10 minə yaxın müraciət daxil olub və bu illərdə 39 min İsmayıllı sakini mərkəzin fəaliyyətindən bəhrələnib. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq, burada aktiv terapiya, psixoloq, loqoped, ünsiyyət terapiyası, fərdi məşğələ, sensor, sosial iş, kompüter, dərnək, təlim, konfrans otaqları, qadınlar üçün məşğələ otağı, su terapiyası üçün hovuz, asudə vaxtın təşkili məqsədilə ana-uşaq klubu üçün zal və digər otaqlar var.

*Ardı Səh. 3*



# BÖLGƏLƏRİN inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də İsmayıllı və Şamaxı rayonlarına səfər ediblər*

Əvvəli Səh. 2

Bundan əlavə, yaxın rayonlardan mərkəzin fəaliyyətindən bəhrələnmək istəyən risk qruplu ailələr üçün müvafiq şərait yaradılıb.

Dünən həmçinin İsmayıllı şəhər Natiq Behdiyev adına 6 saylı tam orta məktəbin yeni binası istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də Şamaxı rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım xalqımızın ümummilli lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Şamaxıda "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzini işə salıb.

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərində inşa edilən 7 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər. 80 yerlik məktəbəqədər təhsil





müəssisəsində qrup, oyun və yataq otaqları, idman, akt və musiqi zalları, tibb otağı var. Burada uşaqların ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün zəruri şərait yaradılıb. Bağçanın həyətində abadlıq-yaşıllaşdırma işləri aparılıb, oyun meydançası və söhbətgahlar quraşdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bundan başqa dünən Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Yaradıcılıq Mərkəzinin, Şamaxı rayonunda akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binasının, Azərbaycan Şamaxı Üzüm Tingçilik Mərkəzinin, Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işlərindən sonra açılışlarında iştirak ediblər.





## İordaniyalı akademik:

## "Azərbaycan bu təcavüzkar siyasəti iflasa uğradıb və erməni iddialarına son qoyub"

**İordaniyalı akademik Mərvan Suda "Əl Ənbat" qəzetində Azərbaycanın 44 günlük müharibədə Qələbəsinin beynəlxalq əhəmiyyəti barədə məqalə ilə çıxış edib.**



AZƏRTAC xəbər verir ki, məqalədə bütün tərəqqipərvər beynəlxalq ictimaiyyətin Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsini və BMT Təhlükəsizlik Şurasının qətnamələrini öz gücü ilə yerinə yetirməsini təqdir etdiyi qeyd olunub. Müəllif yazıb: "Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan dövləti ərazi bütövlüyünün bərpası istiqamətində məqsədyönlü və ardıcıl siyasət aparıb və döyüş meydanında öz müqəddəs torpaqlarını işğaldan azad etməyə müvəffəq olub. Öz xalqını və sərhədlərini qoruyan dövlət başçısı, eyni zamanda regional sülhün və təhlükəsizliyin təmin olunması, qonşularla şəffaf münasibətlər qurulması, geniş coğrafiyada kontinental və qlobal iqtisadi əməkdaşlığın inkişafı hədəflərini böyük əzmlə həyata keçirir. Azərbaycan Prezidenti çalışır ki, Cənubi Qafqaz regionu sabitlik və qlobal sərmayələrin cəlb olunduğu açıq məkana çevrilsin. Əlbəttə, bunun üçün ilk növbədə Ermənistanın təcavüzkar siyasətinə son qoyulmalı, sabitliyin və təhlükəsizliyin hökm sürdüyü bir şərait yaranmalı idi. Azərbaycanın Qələbəsi nəticəsində buna nail olundu. Artıq Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıq təkcə bu regionun deyil, həm də Asiya və Avropa arasında əməkdaşlığın önünü açdı".

Tarixi faktlara müraciət edən müəllif yazır ki, hələ çar Rusiyasının süqutundan sonra erməni bolşevikləri Bakıda və bütün Qafqazda təxribatlar, qırğınlar törədib, regional təhlükəsizliyə təhdid yaradıblar. Ermənilər sovet hakimiyyəti illərində də qonşularına qarşı ərazi iddiaları irəli sürüb, özlərinə aid olmayan torpaqları işğal etmək üçün əlverişli məqam gözləyiblər. Onlar müvəqqəti olaraq buna nail olsalar da, müstəqil, iqtisadi qüdrəti gündən-günə artan Azərbaycan bu təcavüzkar siyasəti iflasa uğradıb və erməni iddialarına son qoyub. Bu gün işğaldan azad olunmuş torpaqlar sabitlik məkanına çevrilib, müxtəlif ölkələrin şirkətləri şəhərlərin və kəndlərin bərpasında iştirak etmək niyyətini nümayiş etdirirlər.

M.Suda qeyd edib: "İnanıram ki, ərəb ölkələrinin şirkətləri, ilk növbədə iordaniyalı sərmayədarlar da Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində fəal iştirak edəcəklər".

Yazıda, həmçinin Ermənistanın 44 günlük müharibədə cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini raket və artilleriya atəşinə tutması, mülki əhalini qətlə yetirməsi barədə məlumat verilib.

## Tacikistan portalı insanlıq əleyhinə yönələn erməni vandalizmindən yazıb




Tacikistanın "faraj.tj" portalında erməni vandalizmindən bəhs edən "İnsanlıq əleyhinə yönələn erməni vandalizmi" sərlövhəli geniş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə ermənilərin 200 ildən artıq müddətdə Azərbaycan xalqına qarşı apardığı məkrli siyasətin, tarixi, dini abidələrin, müqəddəs məkanların və məbədlərin dağıdılmasının, Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı ərazilərimizdə maddi-mədəniyyət nümunələrinin məhv edilməsinin, tarixi-dini abidələrin yer üzündən silinməsinin bu terrorçu dövlətin işğalçılıq siyasətinin tərkib hissəsi olduğu bildirilib.

Qeyd olunub ki, 1991-1994-cü illərdə Ermənistanın ölkəmizə qarşı təcavüzü zamanı Azərbaycanın Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Cəbrayıl rayonları işğal edilib. Hərbi təcavüz nəticəsində 20 min insan həyatını itirib, 4866 insan əsir götürülüb və ya itkin düşüb. Müharibə nəticəsində təxminən 100 min nəfər yaralanıb, onlardan 50 mini əlil olub.

Diqqətə çatdırılıb ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 900 yaşayış məntəqəsi , evlər, sənaye və kənd təsərrüfatı, məktəblər, mədəniyyət və səhiyyə müəssisələri, avtomobil yolları, körpülər, elektrik xətləri və sair dağıdılıb.

Məqalədə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın öz torpaqlarını erməni işğalından azad etdiyi bildirilib. Bu müharibə günlərində də ermənilərin şəhər və kəndlərimizi - Gəncə, Bərdə, Goranboy, Ağcabədi, Tərtər, Beyləqan, Ağdam və Füzulini raketlərdən atəşə tutduğu, tarixi və dini abidələrimizin dağıdıldığı vurğulanıb.

# Prezident:



## "Ermənistanın bütün bu əməlləri müharibə və insanlıq əleyhinə cinayətlərdir"

**"Azərbaycan torpaqlarının 20 faizinin 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğalı, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərin törədilməsi ilə müşayiət olunub". Bu fikirlər Prezident İlham Əliyevin Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclasının iştirakçılarına ünvanladığı müraciətdə öz əksini tapıb.**

"Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Ermənistan 1992-ci ildə Xocalı soyqırımı törədib, 613 nəfər günahsız dinc sakin vəhşicəsinə qətlə yetirib. Birinci Qarabağ müharibəsi nəticəsində 4000-ə yaxın vətəndaşımız itkin düşüb. İşğal dövründə Ermənistan bütün kənd və şəhərlərimizi tamamilə dağıdıb, tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub. Ermənistan işğal edilən ərazilərimizdə ekoloji terror həyata keçirib, meşələrimizin 60 min hektarı məhv edilib, torpaqlarımız və çaylarımız çirkləndirilib, zəhərləndirilib. Qızıl yataqları və digər təbii yataqlar xarici şirkətlərin iştirakı ilə qeyri-qanuni istismar edilib. İşğal edilən ərazilərimiz narkotik maddələrin istehsalı və dövriyyəsi, beynəlxalq terrorçuların hazırlanması üçün geniş istifadə edilirdi. Ermənistan həmçinin, bu ərazilərdə qanunsuz məskunlaşma siyasəti həyata keçirib".

Dövlət başçısı bildirib ki, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan ordusu qadağan olunmuş silahlarla mülki əhalini hədəfə alırdı: "Bu hərbi cinayətlər nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilib, 450 nəfərdən çox insan yaralanıb. Ermənistanın Azərbaycana qarşı muzdlu və əcnəbi döyüşçülərdən də istifadə edirdi. Müharibədən sonra isə 150-dən çox vətəndaşımız Ermənistan tərəfindən məqsədyönlü şəkildə basdırılmış minalara düşərək həlak olub, xəsarətlər alıb".

### "Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini icra edərək ərazi bütövlüyünü bərpa edib"

Azərbaycan Prezidenti müraciətində Ermənistanın bütün bu əməllərinin müharibə və insanlıq əleyhinə cinayətlər olduğunu deyib: "44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan özü Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri, beynəlxalq hüququn norma və prinsiplərini icra edərək ərazi bütövlüyünü bərpa edib. Hazırda regionda yeni reallıq yaranıb. Zəngəzur dəhlizinin açılması regional əməkdaşlığın inkişafına əsaslı töhfə verəcək. Hesab edirəm ki, bugünkü iclasda Türk Şurasına üzv Dövlətlərin Baş Prokurorluq Şurasının təsis edilməsi regionumuzda insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərimizin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə təkan verəcək".

Bu gün terrorçu və işğalçı Ermənistanın barbarlığı, vandallığı heç təəccüb də doğurmur. Çünki terrorçu Ermənistan bütün dünyada işğalçılıq siyasəti ilə qəbul edilir. Azərbaycan isə həmişə haqq və ədalətin bərpası uğrunda mübarizə aparıb.

Sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana qarşı İkinci Vətən Müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev diplomatik siyasəti, Müzəffər Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti nəticəsində işğal altında olan torpaqlarımızın həsrətinə noyabrın 10-da son qoyuldu. Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunması barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Beləliklə, hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir.

### 9 noyabr - Qarabağ münaqişəsi bitdi

Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Dünya hərb tarixi də göstərir ki, belə itkilərə məruz qalmış tərəf məğlub hesab edilir, təslim olur və hərbi əməliyyatlar dayandırılır.

Noyabrın 9-da Azərbaycan, Rusiya Prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi.

Noyabrın 9-da imzalanan birgə bəyanatda Ermənistan öz üzərinə öhdəlik götürdü ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq. Həmçinin, bölgədə sülhyaratma prosesi Rusiya və Türkiyənin birgə iştirakı ilə təmin olunacaq. Eyni zamanda, sülhməramlıların əraziyə gəlməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə sinxron qaydada aparılacaq. Ancaq bu günə kimi, işğalçı Ermənistan bu bəyanata əməl etmir.

Bəyanatda Dağlıq Qarabağa hər hansı statusun verilməsi ilə bağlı bir söz də yazılmayıb və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu, Azərbaycanın tam və şərtsiz qələbəsinin əyani sübutudur. Artıq qoşunların təmas xətti anlayışı yoxdur. Atəşkəs hazırda Ermənistan və Azərbaycan silahlı qüvvələrinin yerləşmə məntəqələri ilə müəyyən olunur. Rusiya və Türkiyə silahları qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilir. Lakin bu gün də Ermənistan yalnız xain qonşu deyil, həm də barbardır. Uzun illərdir Azərbaycan torpaqlarını işğal altında saxlayan bu xain qonşu Azərbaycan torpaqlarından qovulanda da cinayət əməllərindən əl çəkmir. Əslində, Azərbaycan və Ermənistan arasında münasibətlərin bərpası ən çox Ermənistana lazımdır. Prezident İlham Əliyevin dediyi kimi: "Bizim itirəcəyimiz heç nə yoxdur. Zaman bizim xeyrimizə işləyir. Azərbaycan hər gün gücünə güc qatır. Ona görə də Ermənistan bütün spekulyasiyaları kənara qoymalı və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməlidir". Bir sözlə, Ermənistan müharibə cinayətlərinə, təbiətə, dinc əhaliyə, mülki infrastruktura vurduğu ziyana görə mütləq cavab verməli olacaq.

**RƏFİQƏ HÜSEYNOVA**



Ensuite, les présidents se sont entretenus en tête-à-tête à Aghaly, où ils ont fait une déclaration conjointe à la presse. En abordant la question du **corridor de Zenguézour,** le président Ilham Aliyev a rappelé que le Zenguilan était situé « dans la zone du Zenguézour oriental ». « Le corridor de Zenguézour qui la traverse reliera l'ensemble du monde turcophone. L'Azerbaïdjan et la Turquie prennent des mesures pratiques pour la réalisation du corridor de Zenguézou



MUSULMANS EN FRANCE

INAUGURATION DE L'AÉROPORT DE FUZOULI

Les présidents azerbaïdjanais et turc ont coupé le ruban et reçu les clefs symboliques de l'Aéroport, construit avec la participation d'entreprises azerbaïdjanaises et turques. Un premier avion, emmenant des journalistes et des blogueurs avait déjà atterri sur sa piste le 5 septembre.

# Fransa portalı

## Füzuli Beynəlxalq Hava Limanının açılışından yazıb

**Fransanın "Musulmans en France" www.musulmansenfrance.fr xəbər portalında Azərbaycanın yeganə fransızdilli mətbu orqanı "Le Carrefour" (Yol qovşağı) qəzetinin təsisçisi, jurnalist Zeynab Kazımovanın "Füzuli Hava Limanının açılış mərasimi" sərlövhəli məqaləsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışından söz açan jurnalist mərasimdə prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirak etdiklərini bildirib, bunun Türkiyə Prezidentinin Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsindən sonra Qarabağa ikinci səfəri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan hava limanının tikintisi işlərini 8 ay ərzində başa çatdırıb. Bu il sentyabrın 5-də aeroportda sınaq uçuşu həyata keçirilib. Xatırladıb ki, Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə bu il iyunun 15-də Şuşa şəhərində Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsi haqqında Şuşa Bəyannaməsini imzalanıb.

Qeyd olunub ki, Azərbaycan və Türkiyə prezidentləri, eyni zamanda, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikinti işlərinin gedişi ilə tanış olub, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməl daşının qoyublar. Yazıda Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə də prezidentlərə məlumat verildiyi vurğulanıb.

Prezidentlərin Zəngilan rayonunun Ağalı kəndində təkbətək görüşünə və mətbuata birgə bəyanatlarına toxunan müəllif Prezident İlham Əliyevin çıxışında Zəngəzur dəhlizi ilə bağlı söylədiyi fikirlərə diqqət çəkib. Zeynab Kazımova bildirib ki, siyasi şərhçilər Ordumuzun 44 günlük müharibədə Qələbəsindən sonra Türkiyə Prezidentinin Qarabağa ikinci səfərini Azərbaycan-Türkiyə münasibətlərində yeni dövrün başlanğıcı kimi qiymətləndirirlər. Gələn ay Azərbaycanın Türk Şurasına sədrliyini Türkiyəyə təhvil verəcəyini qeyd edən müəllif mətbuat konfransında çıxış edən dövlətimizin başçısından bu sitatı təqdim edib: "Türkdilli dövlətlər arasında əməkdaşlıq və qardaşlıq əlaqələri daha da möhkəmlənəcək, bununla da bütün türk dünyası üçün yeni imkanlar açılacaqdır".

Müəllif yazıb ki, Füzuli Beynəlxalq Hava Limanının açılışı ilə yanaşı, uzun illər ermənilər tərəfindən dağıdılmış Qarabağın müxtəlif bölgələrində yeni layihələrin təməlinin qoyulması həm iki ölkə, həm bölgə, həm də dünyanın digər dövlətləri üçün çox mühüm hadisədir. Zəngəzur dəhlizi təkcə iki ölkə arasında münasibətlərin deyil, həm də regionun inkişafına töhfə verəcək. Z.Kazımova, həmçinin yazıb ki, Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilanda verdikləri bəyanatlar Şuşada səsləndirilən fikirlərin davamıdır. Onlar regionun sabitliyindən, qonşu dövlətlər, o cümlədən Türkiyə, Azərbaycan, Gürcüstan, Rusiya, İran və təbii ki, Ermənistanla münasibətlərdən danışdılar. Çünki bölgədə yeni vəziyyət yaranıb. Azərbaycan ərazi bütövlüyünü bərpa edib və sülhün bərqərar olmasına çalışır. Bu, Ermənistan üçün də maraqlı olmalıdır. Çünki sülh sazişi çərçivəsində regional əməkdaşlıq, nəhayət, inkişaf edə və Ermənistan bu prosesdə iştirak edə bilər. Ona görə də Ermənistanın Azərbaycanla problemlərini həll etmək üçün səmimi istək nümayiş etdirməsi vacibdir. Türkiyə Prezidentinin vurğuladığı kimi: "Azərbaycan üçün səmimi iradə olarsa, Türkiyənin Ermənistanla münasibətlərinin normallaşmasına heç bir manea olmayacaq... Bir daha vurğulayıram ki, Türkiyə eyni konstruktiv anlayışla davamlı sülhə doğru hər addımı müsbət atacaq".



# Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasında fəal tərəfdaşlıq mövcuddur

## Tahir Budaqov Sara Maykl ilə görüşüb

Noyabrın 1-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Dünya Bankının Azərbaycan üzrə Ölkə Meneceri xanım Sara Maykl ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüş zamanı son illər ərzində Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasındakı fəal tərəfdaşlıq nəticəsində ikitərəfli əməkdaşlığın inkişafına yönəlmiş bir çox görüşlərin təşkil olunduğu qeyd edilmiş, bu tərəfdaşlıq çərçivəsində həyata keçirilən "Azərbaycan Respublikası: 2018-2022-ci illərdə müfəssəl institusional, kadr və informasiya-kommunikasiya texnologiyaları potensialının artırılması planları daxil olmaqla, 2018-2030-cu illər üzrə Statistikanın İnkişafı üzrə Milli Strategiya Layihəsi"nin icrası ilə bağlı və perspektiv planlar ətrafında müzakirələr aparılmış, həyata keçirilən birgə tədbirlərin ölkədə statistika potensialının gücləndirilməsində, milli statistika sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və ölkə statistikasının inkişafında əhəmiyyəti vurğulanmışdır. Dünya Bankının Azərbaycan üzrə Ölkə Meneceri xanım Sara Maykl səmimi görüşə görə öz məmnunluğunu ifadə edib.

# "Zəfər günün mübarək, Azərbaycan!" adlı fləşmob keçirilib



**Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatı tərəfindən 8 Noyabr Zəfər Gününə həsr olunan "Zəfər günün mübarək, Azərbaycan!" adlı fləşmob keçirilib. SİA-nın məlumatına görə, Bakı Olimpiya Stadionunun ərazisində təşkil olunan fləşmob iki kompozisiyadan ibarət olub.**

1800 nəfər gəncin və peşəkar xareoqrafların iştirakı ilə hazırlanan fləşmobda Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi və şanlı ordumuzun gücü sayəsində tarixi qələbə ilə sonlanan Vətən Müharibəsi nəticəsində bütövləşən Azərbaycanın xəritəsi və Qələbəmizin simvolu olan "Dəmir yumruq" işarəsi əks olunub.

# Ukraynalı politoloq: "Azərbaycanda baş vermiş hadisə gələcəkdə bütün türk dünyasına təsir göstərə bilər"



**Oktyabrın 26-da Azərbaycanda baş vermiş hadisə gələcəkdə təkcə Türkiyə və Azərbaycanın siyasətinə deyil, bəlkə də bütün türk dünyasının siyasətinə təsir göstərə bilər. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Aeroportunun açılışı və Zəngəzur dəhlizinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

Bu sözləri siyasi elmlər namizədi, politoloq Aleksey Buryaçenko AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, Füzuli aeroportu sadəcə növbəti aeroport deyil, Azərbaycan Qarabağda bu aeroportu cəmi səkkiz ay ərzində inşa edib. Bu aeroportdan bütün genişfüzelyajlı təyyarələr, o cümlədən böyük yük təyyarələri uçuşlar həyata keçirə biləcəklər. Gözlənildiyinə görə, hazırda Qarabağın səma qapıları adlanan aeroport regionda turizmin və ticarətin inkişafına şərait yaradacaq.

Aleksey Buryaçenko daha sonra deyib: "İki ölkənin prezidentləri tərəfindən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisinin və Zəngilanda Türkiyənin dəstəyi ilə yaradılacaq "ağıllı aqropark"ın təməlinin qoyulması da Füzuli aeroportu kimi genişmiqyaslı layihədir".

Politoloq vurğulayıb ki, Azərbaycan hökumətinin dəfələrlə bəyan etdiyi kimi, bu iki ölkə böyük infrastruktur layihələrinin həyata keçirilməsi hesabına Azərbaycanın nəzarəti altına qaytarılmış əraziləri sənaye və turizm mərkəzlərinə çevirməyə çalışır. Bu, həmin regionlardakı evlərini tərk etməyə məcbur olmuş insanlar üçün müsbət siqnal olacaq.

A.Buryaçenko daha sonra deyib: "Azərbaycan və Türkiyə tərəfindən bu cür genişmiqyaslı birgə layihələrin həyata keçirilməsi iki ölkə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə şərait yaradacaq. Türkiyə coğrafi baxımdan Azərbaycana ən yaxın türkdilli ölkədir. Şübhə yoxdur ki, indi Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyət dəyişiklikləri baş verir. Azərbaycan Türkiyə ilə birlikdə tarix yazır. Bu iki ölkənin münasibətləri strateji tərəfdaşlıqdan növbəti, keyfiyyətcə yeni səviyyəyə keçir".

# YAP GB-nın nümayəndə heyəti Ukraynanın Gənclər və İdman nazirinin müavini ilə görüşüb








Ukraynaya səfəri çərçivəsində Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin nümayəndə heyəti Kiyev şəhərində yerləşən Ukrayna Gənclər Mərkəzində Gənclər və İdman nazirinin müavini Marina Popatenko, həmçinin "Ze!Molodijka" təşkilatının fəal gəncləri ilə görüş keçiriblər. SİA-nın verdiyi məlumata görə, görüşdə Ukraynanın Gənclər və İdman nazirinin müavini Marina Popatenko Azərbaycanla Ukrayna arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq, bu münasibətlərin hər iki ölkə gəncləri arasında yeni əməkdaşlıq perspektivləri yaratdığını bildirib. Əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı səfərlərin, birgə layihələrin keçirilməsinin vacibliyi barədə fikirlərini bölüşüb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Gənclər Birliyi tərəfindən beynəlxalq səviyyədə əlaqələrin inkişafına, əməkdaşlığın genişlənməsinə xüsusi önəm verildiyini diqqətə çatdırıb. Ötən ay YAP Gənclər Birliyi və "Ze!Molodijka" təşkilatı arasında videoformatda ilkin təmasın qurulduğunu diqqətə çatdıran B. İslamov münasibətlərin qısa zaman ərzində dərinləşərək Əməkdaşlıq haqqında Memorandum əsasında qurulmasını yüksək qiymətləndirib. Hər iki partiyanın gənclər təşkilatları arasında ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə çatdırılmasının əhəmiyyətindən bəhs edib.

Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər haqqında danışan B.İslamov Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yeni reallıqların yarandığını diqqətə çatdırıb. Qeyd edib ki, yaranmış yeni reallıqlar fonunda Yeni Azərbaycan Partiyasının VII Qurultayında Gənclər Birliyinin 30 nəfərdən ibarət yeni tərkibi formalaşdırılıb. Bildirib ki, Gənclər Birliyinin yeni Əsasnaməsi təsdiq edilərək fəaliyyət istiqamətləri müəyyənləşdirilib. Onlardan biri də Gənclər Birliyinin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətini daha da genişləndirməkdir. Vurğulayıb ki, Ukraynanın hakim "Sluqa Narodu" partiyasının "Ze!Molodijka" gənclər qolu ilə yaxın təmasların qurulması bu fəaliyyətin nəticəsidir.

Sonra "Ze!Molodijka" təşkilatının fəal gəncləri həyata keçirdikləri layihələr haqqında təqdimatla çıxış ediblər. Görüşdə iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və birgə xatirə şəkli çəkdirilib.

# İki dövlət və bir millətin sarsılmaz birliyi:

## Azərbaycan-Türkiyə



**Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələri bu gün daha da möhkəmlənib, əməkdaşlıq genişləndirilib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə yüksələn xəttlə inkişafdadır. Siyasi, iqtisadi, enerji, nəqliyyat - bütün sahələrdə çox böyük nailiyyətlər əldə edilib. Müasir dövrümüzdə Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir.**

44 günlük Vətən müharibəsində Türkiyənin qardaş, dost ölkə olaraq Azərbaycanın yanında olması əlaqələrin möhkəm təməl üzərində qurulmasına söykənir. Bütün dünyaya dostluq və qardaşlıq nümunəsi olan Azərbaycan Türkiyə birliyi hər ötən gün daha da möhkəmlənir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunan ərazilərimizə səfəri bu münasibətlərin davamlığını göstərir. Bu günlərdə Türkiyə Prezidentinin Füzuli Beynəlxalq Hava Limanın açılışında, eləcə də bir sıra məkanlarda təməlqoyma mərasimlərində iştirakı qardaş ölkənin hər zaman Azərbaycanın yanında olmasından xəbər verir. Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata birgə bəyanatlarla çıxış edərkən dövlətimizin başçısının bildirdiyi kimi, "Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir".

Türkiyə 44 günlük Vətən müharibəsində də böyük fəallıq göstərdi, ölkəmizin ədalətli mövqeyini müdafiə etdi. Bu müharibə bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. Türkiyə Prezidentinin 44 günlük Vətən müharibəsi zamanı çıxışlarında səsləndirdiyi fikirlər, atdığı qətiyyətli addımlar, Azərbaycanın yanında olması bu dostluğun, qarşılıqlı münasibətlərin göstəricisidir. Çətin sınaq günlərində Azərbaycan ilə Türkiyənin möhkəm və etibarlı dostluğu özünü göstərmiş oldu. Əsl qardaşlıq münasibəti dünyaya nümunəyə çevrildi.

"Zəngilan rayonunda birinci özəl sərmayə layihəsinin də təməlini qoyduq", - deyən Azərbaycan Prezidenti bu sərmayə layihəsinin də Türkiyə və Azərbaycanın birgə layihəsi olduğunu bildirib: "Yəni, bu, bir daha onu göstərir ki, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də biz çiyin-çiyinə bir yerdə irəliləyirik. Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq".

Dövlət başçısı Zəngəzur dəhlizi ilə də bağlı fikirlərini ifadə edib. Bildirib ki, Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək: "Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir". Zəngəzur dəhlizinin təməlinin qoyulması Azərbaycanın növbəti tarixi qələbəsidir. Əlbəttə ki, iki dövlət arasında olan dostluq münasibətləri bütün dünyaya örnək olacaq nümunədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# ERE telekanalında Qarabağ münaqişəsinin başa çatmasına həsr edilmiş veriliş yayımlanıb

**Fransanın ERE televiziya kanalında "Aktual mövzu" verilişində İkinci Qarabağ müharibəsinin başa çatmasının və üçtərəfli Bəyannamənin imzalanmasının 1-ci ildönümünə həsr olunmuş veriliş yayımlanıb. AZƏRTAC xəbər verir ki, verilişdə Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev və "Fransa Müsəlmanları" informasiya agentliyinin baş redaktoru Jan-Mişel Brun iştirak ediblər.**




Verilişdə Azərbaycan Prezidenti İlham Əliyevin regionun inkişafı, stabilliyi, eləcə də ölkəmizin mövqeyi ilə bağlı fikirləri səsləndirilib. Bir saata yaxın müzakirələr zamanı ölkəmizin səfiri İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra regiondakı vəziyyət, Azərbaycanın Rusiya, İran və Türkiyə ilə münasibətləri, eləcə də Ermənistanla münasibətlərin normallaşdırılması perspektivləri barədə dinləyicilərə məlumat verib.

Səfir münaqişədən sonrakı dövrün əsas problemlərindən ətraflı danışaraq, minaların təmizlənməsi, işğaldan azad edilmiş ərazilərin bərpası, I Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın Azərbaycan vətəndaşının taleyinə aydınlıq gətirilməsi, mövcud blokların açılması və yenidənqurma işlərindən danışıb. Yeni nəqliyyat kommunikasiyalarının yaradılması, Qarabağda yaşayan hər iki icmanın sakinləri olan Azərbaycan vətəndaşları arasında etimadın yaradılması tədbirlərinin gücləndirilməsi, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasının zəruriliyinə toxunub.

ATƏT-in Minsk qrupuna münasibətlə bağlı sualı cavablandırarkən, səfir onun fəaliyyətinin yeni regional reallıqlara tez uyğunlaşmasının vacibliyini vurğulayıb.




"Münaqişə həll olunub və tarixdə qalıb, Azərbaycan ərazilərinin statusu məsələsi isə ölkəmizin Konstitusiyası ilə tənzimlənir. Azərbaycan quruluşuna görə unitar ölkədir, toxunulmazdır və bölünməzdir. Dağlıq Qarabağ anlayışı artıq keçmişdə qaldı, daha mövcud deyil",- deyə səfir diqqətə çatdırıb. Ölkəmizin Fransadakı diplomatik missiyasının rəhbəri Fransanın mərkəzi və regional hakimiyyət orqanlarını Azərbaycanın inzibati bölgüsünə hörmətlə yanaşmağa çağırıb. Respublikamızın 11-i keçmiş münaqişə zonası olmaqla 66 inzibati rayondan ibarət olduğunu bildirib.

Müzakirələr zamanı səfir bəzi fransız siyasətçilərinin Qarabağa qarşı qondarma Azərbaycan-Türkiyə təcavüzü ilə bağlı açıqlamalarını tənqid edib. Qeyd edib ki, bu məntiqdən çıxış etdikdə, Fransa müqavimət hərəkatının lideri Şarl de Qollun 1944-cü ilin iyununda işğal olunmuş Fransanı azad etmək istiqamətində hərəkətləri 1940-1944-cü illərdə Fransanı işğal altında saxlayan faşist alman rejiminə qarşı təcavüz kimi qəbul edilməlidir.

Verilişin aparıcısının Azərbaycan-Fransa münasibətlərinin vəziyyəti ilə bağlı sualını cavablandıran səfir işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və itkin düşmüş vətəndaşlarımızın taleyinə aydınlıq gətirilməsi məqsədilə Fransanın Azərbaycana maliyyə yardımı etmək qərarını yüksək qiymətləndirib. Bu qərarı təkcə mühüm humanitar akt kimi deyil, həm də ikitərəfli münasibətlərin normallaşmasına yönəlmiş ciddi siyasi jest kimi dəyərləndirib.

Müzakirə zamanı Jan-Mişel Brun Azərbaycana səfəri ilə bağlı təəssüratlarını bölüşmüş, xüsusilə də ölkəmizdəki tolerantlıq mühitini, Azərbaycan dünyəviliyinin inklüziv xarakterini vurğulayıb. O, Fransa mətbuatında Ermənistan-Azərbaycan münaqişəsinin və İkinci Qarabağ müharibəsinin işıqlandırılmasının qərəzli xarakter daşıdığını qeyd edərək, bu cür qərəzli yanaşmanın Fransanın imicinə və Cənubi Qafqazın strateji əhəmiyyətli regionundakı mövqelərinə xələl gətirdiyini bildirib.

"Ağdamda və Füzulidə gördüklərim göstərir ki, erməni işğalının məqsədi təkcə torpaqları zəbt etmək deyil, həm də Azərbaycan xalqının mədəniyyətinin bütün izlərini məhv etmək olub",-deyə J.-M. Brun vurğulayıb.

ERE telekanalı müsahibələr zamanı Ağdam və Füzulidə baş verən dağıntıları, Ermənistanın işğalı nəticəsində Azərbaycanın şəhər və kəndlərinə, mədəniyyət abidələrinə dəymiş ziyanı, dağıdılan məscid və mədəniyyət abidələrini əks etdirən video yayımlayıb.




# Zəfər tariximizin astanasında

Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan tarixdə misli görünməmiş bir tarix yazdı. Azərbaycan xalqı şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Artıq bir neçə gündən sonra xalqımız şərəfli tarixini - Zəfər gününü qeyd edəcək. Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti və "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur", - deməsi böyük bir Zəfər tariximizə çevrildi. Bu tarix bu günün və gələcəyin nəsillərinə iftixar yaradan bir gün oldu. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndini, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Eləcə də Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərimiz erməni işğalçılarından azad olundu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də, Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoymuş oldu. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu.

Azərbaycan xalqının torpaq uğrunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmanlığından qaynaqlanırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: "Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir". Əlbəttə ki, Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi bu qələbənin qazanılmasında mühüm rol oynadı".

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Bu il ilk dəfə olaraq 8 noyabr tarixini xalqımız Zəfər günü olaraq qeyd edəcəkdir. Cənab Prezidentin bildirdiyi kimi, "Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu".

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı.

Təbii ki, bu uğulu yolda neçə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrənilir. "Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik", - deyən dövlət başçısı bildirib ki, şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq: "Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək" Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlanılıb. Dövlət başçısı bildirib ki, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır.

**Nəzakət ƏLƏDDİNQIZI**

ANALLİTİK + FAKT

# Sorosun "sağ əli" Delina Fico: Azərbaycanda nə edir?

Sorosa məxsus "Şərq-Qərb İdarəetmə İnstitutu" təşkilatının və ona faktiki rəhbərlik edən Sorosun hərtərəfli mənada ən yaxın adamı olan Delina Fico adlı bir ünsürün ölkəmizdəki özbaşınalıqları haqqında daha əvvəllər və kifayət qədər məlumatları ictimai rəyin diqqətinə çatdırmışıq. Lakin qeyri müəyyən səbəblərə görə, bu təşkilat və adıçəkilən ünsür hələ də heç bir hüquqi icazəsi olmadan, yəni qeyri-qanuni şəkildə ölkəmizdəki fəaliyyətlərini davam etdirir, bu vasitə ilə müxtəlif "qrant layihələri" adı altında mütəmadi olaraq USAİD-dən milyonlarla dollar qazanır.



Bir daha xatırlatmaq yerinə düşərdi ki, Delina Fico ümumiyyətlə Sorosun şəbəkəsində ən tanınmış simasızlardan biridir və özünün çoxsaylı mənəviyyatdan kənar əməllərinə görə dəfələrlə bir neçə ölkədən qovulub. Delinanın mənəviyyatsızlığı həmçinin onun şəxsi həyatında da özünü kifayət qədər büruzə verib. Belə ki, internet bu ünsürün müxtəlif dövrlərlə fərqli-fərqli kişilərlə çəkdirdiyi lüt şəkillərlə aşıb-daşır.

## Delina Ficonun Azərbaycanda fəaliyyətinə rəsmi icazə belə yoxdur!

İndi isə təsəvvür edin, bu fərd özbaşına olaraq, heç bir səlahiyyəti, rəsmi icazəsi olmadan Azərbaycanın dövlət qurumlarına yazılı müraciətlər edir, özü də bizim ana dilimizdə, halbuki, bunun nəinki Azərbaycan dilində yazışma aparmağa heç bir hüquqi və ya mənəvi ixtiyarı yoxdur. Delina Ficonun ümumiyyətlə ölkəmizdə hər hansı bir "humanitar" adı altında fəaliyyətlə məşğul olmasına rəsmi icazə verilməyib, eləcə də Ədliyyə Nazirliyi və Xarici İşlər Nazirliyinin onun fəaliyyəti üçün rəsmi icazəsi belə yoxdur!

*Bu ünsür müxtəlif "qrant layihələri" adı altında mütəmadi olaraq USAİD-dən milyonlarla dollar qazanır və ölkəmiz əleyhinə fəaliyyət göstərir*

Biz əvvəlki, yazılarımızda bu Soros xidmətçisinin Azərbaycandakı fəaliyyəti dövründə təxminən 10 milyon ABŞ dollarını, o cümlədən 7 milyon ABŞ dolları məbləğində Azərbaycan dövlət büdcəsindən ayrılan vəsaiti necə mənimsədiyini açıqlamışdıq. İnanırıq ki, aidiyyətli qurumlar sözügedən 7 milyon ABŞ dolları vəsaitin necə xərcləndiyini araşdıracaqlar.

https://sesqazeti.az/news/analytics/898834.html

Və nəhayət, bugünlərdə Delino Fico öz məqsədlərinə nail olmasının ardınca artıq kibercinayətə belə əl atmağa başlayıb. Belə ki, ABŞ-ın eks-prezidenti Donald Tramp komandasının ən fəal dəstəkçilərindən olan xanım Evi Kokalarinin Facebook səhifəsi məhz Delino Ficonun hakerlər komandası tərəfindən kiberhücuma məruz qalıb. Xanım Ev Kokalari Facebook hesabını bərpa etdikdən sonra Delina Fico-ya belə bir mesaj ünvanlayıb: "Başa düşdüm Delina Fico. Sən çirkin əməllərlə qalib qəlməyəcəksən. Mənim hesabımı ələ keçirmək cəhdlərini dayandır".

## Fox News Delina Ficonun hansı əməllərini və necə ifşa edib?

Xatırlatmaq istərdik ki, bu günlərdə Delina Ficonun və ümumiyyətlə "Şərq-Qərb İdarəetmə İnstitutunu" Sorosun əsas informasiya mənbəyi olduğunu təsdiq edən başqa bir proseslər də baş vermişdir. Belə ki, ABŞ-ın dövlət katibi Blinken, Albaniyanın sabiq prezidenti Sali Berişaya qarşı ciddi sanksiyalar tətbiq edib və hətta Berişanın və onun ailə üzlərinin ABŞ-a daxil olmasını yasaqlayıb. Məhz amerikalı jurnalistlərinin araşdırmaları nəticəsində məlum olub ki, sabiq prezident haqqında saxta guya ifşaedici, əslində isə iftira dolu uydurma faktları Blinkenə Soros vasitəsi ilə "Şərq-Qərb İdarəetmə İnstitutu" və şəxsən Deina Fico ötürüb. Bu haqda məlumatları isə nüfuzlu Fox News paylaşıb:

https://bongino.com/secretary-of-state-blinkens-family-ties-to-george-soros-exposed/?fbclid=IwAR2zW09vccTfbb_CBktHjEooXdzxkleSGm7C_YmNhgZwy6yW7tqXioAo8wo

https://www.syri.net/politike/458818/dosjen-e-berishes-e-pergatiti-delina-fico-gazetari-goditja-qe-te-rrije-rama-ne-pushtet https://mergimtarsh-qip.com/wp/news/4159

Hazırda bununla bağlı ABŞ-da və Albaniyada ciddi qalmaqallar yaşanır və bu qalmaqallar böyüyür. Xatırlatmaq istərdik ki, ölkə başçımız haqqında uydurma, qərəzli və böhtan dolu sözdə "pandorra" məlumatlarının yayılmasından 3 gün öncə USAİD-in sorosçu rəhbəri həmin qurumun nümayəndələrini qəbul etmişdir. Artıq aydın olur ki, "Şərq-Qərb İdarəetmə İnstitutunun" ölkəmizdə qoruyub saxlamasının əsas məqsədlərindən biri də məhz bu kimi saxta, yalan və böhtan xarakterli məlumatları toplayıb hazırda dolayısı ilə Sorosun nəzarətində olan Dövlət Departamentinə göndərilməsidir. Yəni bu xüsusda xatırlatmaq yerinə düşərdi ki, gün Bayden administrasiyasının əsas təməlini başda onun özü olmaqla sorosçular təşkil edirlər.


07:23
Delina Fico 00:35
to
Alexandra, Ja...
Hörmətli cənab [redacted]
regional bölməsinin nümayəndəsi qismində tutduğunuz vəzifəni nəzərə alaraq bu məktubu sizə yazıram. [redacted]

Sizə məlumat vermək istərdim ki, bu gündən etibarən Azərbaycanda Sosial İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) proqramının Ölkə üzər Direktor (Proqram Rəhbəri) səlahiyyətlərini müvəqqəti icra [redacted] edəcəyəm [redacted]

Biz bir daha SEDA ilə əməkdaşlığınız üçün sizə təşəkkürümüzü bildiririk və biz SEDA-nın sizin regionda dəstəklədiyi icma əsaslı sosial iqtisadi layihələri icra etmək üçün sizinlə çalışmağa davam edəcəyik.

Hörmətlə,
Delina Fitso

https://sia.az/az/news/politics/896995.html

Əlbəttə, biz inanırıq ki, Azərbaycan xalqının və dövlətinin maraqlarına qarşı qərəzli məqsədlər güdən bu kimi ünsürlər və onların fəaliyyətləri kökündən araşdırılacaq və Delina Fico adlı şəxsin ölkəmizdəki fəaliyyətlərinə nəhayət ki, son qoyacaq. Bu mənada, Delina Ficonun pasportunun şəklini təqdim edirik ki, bu ünsür haqqında hər kəs məlumatı olsun.

**Rövşən RƏSULOV**

ARAŞDIRMA

# Azyaşlılara qarşı zorakılıq hallarında günahkar kimdir?

**Uşaq istismarı, uşağa zorakılıq və ya pis rəftar kimi müəyyən edilə bilər. Mütəxəssislər arasında uşaq istismarı fiziki qısnama, cinsi təcavüz, psixoloji təzyiq və məlumatsızlıq kimi dəyərləndirilir. Bütün bu kateqoriyalara uşaqları işə götürmək, uşaqları cinsi istismar etmək, uşaqlara zərər vermək, uşaqları erkən yaşda evləndirmək və saya bilməyəcəyimiz bir çox başqa şeylər daxildir.**

## 1 milyarda yaxın uşaq zorakılıq qurbanıdır





Ümumdünya Səhiyyə Təşkilatının 2020-ci ildə paylaşdığı hesabata görə, 2019-cu ildə 2-17 yaş arası təxminən 1 milyard uşaq fiziki, cinsi və ya emosional zorakılığa məruz qalıb. Dünyada hər il 1 milyard 700 milyon uşağın zorakılığa məruz qaldığı bildirilir.

Dünyada 20 yaşdan aşağı hər 10 gənc qızdan 1-i cinsi əlaqəyə məcbur edilir. 15-19 yaş arası 15 milyon gənc qızın cinsi əlaqəyə məcbur edildiyi bildirilir. 10 uşaqdan 6-sı valideynləri tərəfindən fiziki cəzalandırılır. Aşkar edilmiş insan alveri fəaliyyətlərində uşaqların 28 faizi qurbandır. Hər il 15 yaşa qədər 41 min uşaq məişət qətli nəticəsində dünyasını dəyişir.

Yetkinlərin dörddə biri uşaqlıqda zorakılığa məruz qaldıqlarını bildirir. Hər 5 qadından 1-i və 13 kişidən 1-i uşaq ikən zorakılığa məruz qaldığını təsvir edir.

Digər tərəfdən, epidemiya dövründə internetdə uşaqlara qarşı zorakılığın həyəcan verici dərəcədə artdığını və uşaq istismarı hallarının 3 dəfə çoxaldığı bildirilib.

## Hansı ölkədə uşaqlar nə qədər təhlükəsizdir?

Tədqiqat ölkələr, ətraf mühit, hüquqi fəaliyyət, hökumətin imkanları, özəl sektorun, vətəndaş cəmiyyətinin və medianın baxışı əsasında qiymətləndirilib. Araşdırmaya görə, uşaqların ən təhlükəsiz olduğu ölkə 83,9 faizlə İngiltərə, ən az təhlükəsiz ölkə isə 26,4 faizlə Konqo Demokratik Respublikasıdır.



## İngiltərə

Uşaqlar üçün ən təhlükəsiz ölkə olduğu deyilən İngiltərədə 2020-ci ilin mart ayında 19 847 uşaq cinsi istismara məruz qaldıqları üçün yardım alırdı.

2016-17-ci illərdə aparılan araşdırmaya görə, 43 522 uşaq cinsi istismara məruz qalıb. İngiltərədə 2020-ci ildə aparılan araşdırmada 18-74 yaş arası 8 milyon 500 min yetkin 16 yaşından əvvəl cinsi istismara məruz qaldığını etiraf edib.

Araşdırmada İngiltərənin uşaq istismarının qarşısını almaq üçün proqramlar hazırladığı və texnoloji sahələrdə yaxşı çıxış təmin etdiyi bildirilib. Bununla belə, rəsmi qurumlar tərəfindən heç bir rəsmi məlumatın paylaşılmamasının böyük çatışmazlıq olduğu bildirilib.

## Almaniya

Siyahının 5-ci pilləsində 73,1 faizlə Almaniya qərarlaşdırılıb. Alman polis orqanlarının 2018-ci ildə uşaq istismarı ilə bağlı dərc etdiyi hesabata görə, ölkədə hər gün 40 uşaq zorakılığa məruz qalıb.

Almaniyada uşaq zorakılığına qarşı proqramlar hazırlanır və texnoloji imkanlar təklif olunur, lakin burada rəsmi məlumat mübadiləsi də problemlidir.

## Türkiyə

Türkiyə yüzdə 56,7 ilə siyahıda 18-ci yerdədir. Türkiyə Statistika Təşkilatının 2016-cı il məlumatlarına görə, Türkiyədə son 10 ildə uşaq istismarı ilə bağlı halların sayı təxminən 3 dəfə artıb, 250 min uşaq zorakılığa məruz qalıb. TÜİK-in 2019-cu il məlumatlarına görə, cinayət qurbanı kimi gələn 206 min 498 uşağın 15,2 faizi cinsi zorakılığın qurbanı olub.



Araşdırmalarda Türkiyədə uşaq istismarına qarşı media, ictimaiyyət və vətəndaş cəmiyyətinin mühüm dəstəyi olduğu bildirilir. Digər tərəfdən, hüquq sistemində boşluq var, sui-istifadəyə qarşı milli maarifləndirmənin olmaması və rəsmi məlumatların paylaşılmaması çatışmazlıqlar kimi qiymətləndirilir.

## Rusiya

Rusiya 47,2 faizlə 38-ci yerdədir. Əslində, Rusiyada cinsi istismar məlumatları üçün etibarlı mənbə yoxdur. Rusiyada hüquqi strukturda irəliləyişlərin olduğu, lakin məlumatların toplanması, milli təhsil və dəstək proqramlarının çatışmadığı vurğulanır.

## Konqo Demokratik Respublikası



Gender əsaslı ayrı-seçkiliyin ən çox olduğu ölkələr arasında Konqo Demokratik Respublikası isə 26,4 faizlə siyahının sonundadır. Konqoda az qala hər 2 uşaqdan 1-i gənc yaşda evlənmək məcburiyyətindədir və 15-19 yaş arası qızların yüzdə 27-nin hamilə olduğu bildirilir. 15-19 yaşlarında cinsi əlaqəyə məcbur edilən qızların yalnız 1%-i peşəkar yardım ala bilir.

Uşaqlara qarşı hər cür zorakılıq təəssüf ki, dünyanın hər yerində ürəkağrıdan bir reallıqdır. Ölkələrin rifah səviyyəsi yüksəldikcə məlumatlara çatmaq asan olsa da, ən inkişaf etmiş ölkələrdə belə məlumatlar hələ də çox aydın deyil. İşlərin əksəriyyəti qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilir.

Uşaqların zorakılığın hər hansı formasına məruz qalmasına haqq qazandırmaq olmaz, istənilən zorakılığın qarşısını almaq olar. Uşaqlar üçün ən təhlükəsiz ölkə kimi müəyyən edilən ölkədə belə uşaqların 20 faizi təhlükəsiz deyil. Dünyanın hər bir ölkəsində, hər bir guşəsində gələcəyimiz, maarifimiz olan günahsız uşaqları qorumaq hər bir vicdanlı insanın borcudur.

SİA məsələ ilə bağlı araşdırma apararaq sosioloq və psixoloqların fikirlərini öyrənib.

**Sosioloq Rəşad Əsgərov:** "Son zamanlar respublikanın gündəmini zəbt edən azyaşlı qız uşağına, xüsusilə də, yetkinlik yaşına çatmamış qıza qarşı törədilən cinsi zorakılıq artıb. Əlbəttə ki, respublika miqyasında ürəkaçan hadisə deyil, lənətlənəsi və yaxud da ki, müəyyən qədər ictimai qınağa, təzyiqlərə səbəb olan bir hadisədir. Hadisə ilə bağlı artıq hüquq-mühafizə orqanları öz sözlərini deyiblər.



İkinci bir tərəfdən burada ailə daxilində olan problemlər də ailənin müəyyən qədər problemli, ikinci dəfə qurulan ailə olması, ailə üzvləri arasında nəzarət funksiyasının yetərincə olmaması, ailə üzvləri arasında müəyyən qədər problemlərin olması, qorxu və digər amillər nəticəsində cinsi zorakılığa məruz qalmış uşağın bu hadisəni uzun müddət valideyndən, anadan gizlətməsi sonda belə bir hadisəyə gətirib çıxarmışdır. Əlbəttə ki, bu hadisə bəlkə də Avropa ölkələrində baş versəydi ona o qədər də geniş ajiotaj yaratmazdı. Amma Şərq zəminində, xüsusilə də Azərbaycan dövlətində bu hadisənin törədilməsi həm uşağın cinsi istismara məruz qalmasına, digər tərəfdən isə onun cəmiyyət arasında nüfuzunun, ictimaiyyət arasındakı mövqeyinin sarsılmasına gətirib çıxarır.

Üçüncü tərəfdən, uşağa qarşı törədilən zorakılıq hadisəsi, hətta bu uşağın özünün də ölümünə səbəb ola bilərdi. Digər tərəfdən, ikinci dəfə ana ilə nikaha girmiş ögey atalığın bu hadisəni törətməsi isə olduqca qarşılanmaz hal kimi qəbul olunur. Hadisəyə qiymət verərkən artıq cəmiyyət, ictimaiyyət hadisəni hüquqi müstəvidə deyil, elə, insanlar arasında, icma qaydaları əsasında həyata keçirilməsinə və bu hadisəni törədən şəxsin ölümə məhkum olunmasına, asılmasına və digər hallarını daha çox dəstəkləyirlər. Belə hadisələrə baxanda biz görürük ki, belə insanlara qarşı ölüm hökmünün tətbiqi, güllələnmə, asılma və s. daha doğru yol olardı və digər tərəfdən də ki, bu kimi hallarda ölüm hökmünün tətbiqi bu kimi cinayətlərə meyil etmiş atalıqların və digər insanların da belə meyillərdən, cinayətlərdən uzaqlaşmasına gətirib çıxara bilərdi. Əslində, belə insanların cəmiyyət içərisində yaşamağa heç haqqı yoxdur və yaxud da ki, belə insanlar ümumiyyətlə cəmiyyətdən təcrid olunmalıdır. Onlar heyvan sürüsü kimi yaşamağa məhkum olmalıdırlar. Hətta heyvanlar belə bu addımı atmazlar. Amma atalığın bu hadisəni törətməsi isə olduqca qınanılası, olduqca tənqid hədəfinə çevriləsi, o, cəmiyyət tərəfindən olduqca lənətlənəsi bir hadisədir. Biz də bu hadisəni çox qınayırıq və ümid edirik ki, Azərbaycan hüquq-mühafizə orqanları bu hadisəyə layiqli qiymətini verəcəklər və bu hadisədə müəyyən qədər günahlar olmuş şəxslərin və yaxud da ki, hadisəni bilib ictimaiyyətə ötürməyən, hadisənin gizlədilməsinə şərait yaratmış şəxslərin də müəyyən qədər cinayət məsuliyyətinə cəlb olunmasına şərait yaradacaqlar.

Digər bir məqam isə onunla bağlıdır ki, xüsusilə də rayon yerlərində uşaqların konvensiyasına görə icbari təhsilə cəlb olunması prosesi həyata keçirildiyi halda, niyə 11 yaşındakı uşaq müəyyən müddət təhsildən yayınmış vəziyyətdə qalıb? Niyə məktəbdə olmayıb? Niyə məktəb təhsilinə qoyulmayıb və bu hadisə özü də müəyyən qədər Azərbaycan Respublikasında uşaq hüquqlarının, onların təhsil hüquqlarının pozulmasına gətirib çıxarır ki, o da onların müəyyən qədər bu kimi cinsi istismara və digər meyillərə məruz qalmasına səbəb olur. Belə hallarla bağlı təhsil ictimaiyyətinin də qarşısında mühüm bir vəzifə dayanır ki, bütün uşaqlar xüsusilə də icbari təhsil prosesinə sağlamlıq imkanlarında heç bir problemi olmayan, yəni, sağlamlıq imkanları məhdud olmayan uşaqların hamısının təhsil prosesinə cəlb olunması onların bu kimi təcavüz hallarından qorunmasına və yaxud da təcavüzə məruz qalmasının qarşısının alınmasına gətirib çıxara bilər.

Digər bir məqam isə onunla bağlıdır ki, burada azyaşlıya qarşı törədilmiş 14 yaşına və yaxud da 16 yaşına çatmayan şəxsə qarşı törədilmiş cinsi istismar aktı artıq zorakılıqdır, cinsi istismardır. Bu, qəbul edilməyən haldır və ona qarşı mübarizə aparılır. Üçüncü bir hal isə onunla bağlıdır ki, bu uşağa qarşı törədilmiş cinsi istismar haqqı onun uşaq hüquqları haqqında konvensiyaya görə uşaq hüquqlarının pozulmasıdır. O, yetkinlik yaşına çatmadığına görə, ümumiyyətlə, Azərbaycan Respublikasının Ailə Məcəl-



ləsinə əsasən ailə qurmaq, nikaha girmək üçün 18 yaş göstərilir və 18 yaşdan aşağı uşaqlara qarşı törədilmiş cinayət artıq cinsi istismar, cinsi təzyiq, cinsi zorakılıq sayılır. Bu da hüquq-mühafizə orqanları tərəfindən kifayət qədər qiymətləndiriləcək və bu şəxsə qarşı lazımi ölçü götürüləcəkdir".

**Psixoloq Zeynəb Eyyubova:** "Son dövrün ən aktual problemlərindən biri uşaq zorakılığı, zorakılıq faktları bunun alt planında intiharlardır. Uşaqlarınıza birinci zorakılığı öyrətmək lazımdır ki, nədir və necə qorunmalıdır? Uşağımıza "sənin özəl zonaların var" deməliyik. Yəni, oğlan övladına öyrətməlisən ki, "bura intim zonadır, heç kəs toxuna bilməz, müəllim, tərbiyəçi, xala, bibi, dayı qəti olmaz və yalnız həkim toxuna bilər o da ehtiyac, zərurət olarsa, valideynin nəzarəti altında toxuna bilər".

Valideyn uşağının dostlarını tanımalıdır. Yeniyetməlik dövrünün bir özəl xüsusiyyəti var ki, bu dövr ailədən ən çox qırılma dövrüdür. Uşaq ailədən qırılır deyə referant qruplarda özünü xoşbəxt hiss edir. Ata-ana bilməlidir ki, "mənim uşağım hansı referant qruplardadır?", "mənim uşağımın dostlarının marağı nədir?". Bunları bilsələr, zorakılıq faktlarında azalma və maarifləmə olar.

Bu gün elə bilirik ki, qızlara qarşı zorakılıq faktları daha çoxdur. Amma qəbul etməsəniz də və yaxud statistik məlumatlara baxanda bu gün yetərincə yeniyetmə uşaqlar zorakılıq faktları ilə müraciət edirlər. Yeniyetmələr qorxurlar ki, onlara "sən kişi deyilsən" deyə bilərlər, "sən artıq təmiz deyilsən", qızlarımıza "sən pak deyilsən" deyilər. Nə qədər qızlar bizə müraciət edir, artıq illər keçib 30-35 yaşı var 15 il, 20 il bundan qabaqkı dövründən danışanda "zatən mən deseydim də heç kəs mənə inanmazdı, mənə deyəcəkdilər ki, sən nə etmişdin ki, bunu sənə etdilər, sən özünü necə aparmışdın ki, bunu sənə etdilər?!".

Ailədaxili olan zorakılıqlar dırnaqarası abır və mental dəyərlərə görə gizlədilir. Analara deyirəm ki, müəyyən dövrdə qızlara mensturasiya haqqında məlumat verin. Oğlanlara artıq kişi olma ilə bağlı bəzi proseslər var ki, ataları başa salsın, qızları isə anaları başa salın. Bu gün birinci bizim atacağımız addım uşaqlarımıza özlərini qorumağı öyrətməkdir. Bu gün məktəblərdə dəhşətli intim prosesləri, zorakılıqlar gedir və bu gün övladlarımız arasında yetərincə maarifləndirmə getməlidir. Bu gün qızlarımızın bizə ailə tələblərində dediyi sözlər budur: "biz zatən anamızla danışa bilmirik. Danışsam məni təhdid edəcək, atama deyəcək, yəni, rəfiqə ola bilmirik".

***Ayşən Vəli***

# Qlobal Forumun əhəmiyyəti böyükdür

Müstəqillik əldə edildikdən sonra Azərbaycan artıq dəfələrlə mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edib, bu tədbirlərin təşəbbüskarı kimi, onların mövzuları düşünülmüş və ardıcıl şəkildə müəyyən olunub. Əlbəttə ki, Azərbaycanın ev sahibliyi etdiyi həmin mötəbər tədbirlər bir qayda olaraq geosiyasi, enerji, mədəniyyət, siyasət, sivilizasiya, din üzrə əməkdaşlığı gücləndirməyə, genişləndirməyə, dialoqa xidmət edir və beləliklə də Azərbaycan özünün xarici siyasətinin əsas missiyalarından birini uğurla bütün dünyaya nümayiş etdirir. Məhz elə bu baxımdan Qlobal Bakı Forumu da xüsusi təsiri olan, əhəmiyyətli tədbir kimi qiymətləndirilir.

İlk olaraq 2013-cü ildə Cənubi Qafqaz Forumu adı altında təşkil edilən, 2014-cü ildə Qlobal Açıq Cəmiyyətlər Forumu adı ilə keçirilən bu forum, 2015-ci ildən başlayaraq Qlobal Bakı Forumu adlanır və bu Forumda dünyanın bir sıra ölkələrinin dövlət başçıları, tanınmış siyasətçilər iştirak edirlər. Forum bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə tanınmış dövlət xadimləri, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı qaliblərini və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan tədbirdir və bu zaman insan fəaliyyətinin bütün sahələrində çalışan mütəxəssislər bir araya gələrək bəşəriyyəti narahat edən aktual məsələlər müzakirə olunur, onların həlli tapılır. Daha dəqiq desək, forumun vəzifəsi ideyalar, nəzəri və praktiki bilik mübadiləsi, konstruktiv debat və müzakirələr üçün platformanın formalaşdırılmasıdır. Heç şübhəsiz ki, forumun nəticəsi də müvafiq olaraq beynəlxalq təşkilatlara, ölkə liderlərinə, hətta bəzən ayrı-ayrılıqda hər bir şəxsə tövsiyyələr və müraciətlərdə öz əksini tapır.

Əvvəlcə onu vurğulamaq yerinə düşərdi ki, bu Forum indi qlobal miqyasda bir sıra ciddi problemlərin təzahür etdiyi bir vaxtda keçirilir. Məsələn, bütün dünyanı öz cənginə alan pandemiya artıq hər bir yerdə müzakirə mövzusudur və qlobal xarakter daşıyır. Çünki, pandemiya bütün istiqamətlərdə öz mənfi təsirini göstərib və hələ də göstərməkdədir. İnsanların həyat şəraitinə, iqtisadi duruma pandemiyanın təsirini inkar etmək olmaz və bu baxımdan müzakirələr də qaçılmazdır. Digər tərəfdən, böyük dövlətlər arasında nüfuz uğrunda mübarizə indi daha kəskin xarakter alıb. Belə bir kəskin mübarizə əlbəttə ki, iqtisadi münasibətlərə, əməkdaşlıqlara da öz təsirini göstərməkdədir. Nəticə etibarı ilə bütün bunlar ümumi inkişafa əhəmiyyətli dərəcədə təsir edir ki, bunun da müzakirəsi qaçılmazdır. Əlxüsus, Cənubi Qafqazda bir çox dövlətlərin maraqları toqquşur, yaxud da bir çoxları bölgədə mövcudluğunu qoruyub saxlamağa çalışırlar ki, bu məhz Azərbaycanla yanaşı bir çoxları üçün də maraqlı məqamdır.

Bununla yanaşı, çoxdandır ki, islamofobiyadan qidalanan yeni terror dalğası baş qaldırmaqdadır. Yaxın Şərqdə də terror özünü biruzə verir. Bu terror dalğası bütün dünya üçün hər zaman müzakirə mövzusudur və həqiqətən də həlli vacib ən actual məsələlərdəndir. Çünki, bu terror dalğasından, separatçılıqdan insanların əziyyət çəkməsi günün reallığıdır. Sözsüz ki, bunun qarşısının alınması istiqamətində müzakirələr əslində ən vacib hesab olunmalıdır.

Hazırda münaqişələrin həlli məsələsi də günün ən aktual məsələləridir və öz həllini gözləyir. Bir sıra bölgələrdə münaqişələr bir-birini əvəzləməkdədir. Ərazi iddiaları, ərazi bütövlüyü, suverenlik məsələləri ilə bağlı müzakirələr də günün ən vacib məsələlərindəndir. Cənubi Qafqazda bir zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi var idisə də, doğrudur, indi bu münaqişə artıq tarixdə qalıb və belə bir münaqişə, yaxud Dağlıq Qarabağ məsələsi indi yoxdur. Bildiyimiz kimi Ermənistan tərəfinin növbəti təxribatlarına cavab olaraq başladılan və 44 gün davam edən müharibə, zəfər savaşı ilə, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi, uzaqgörən siyasəti, təcrübəsi, lderliyi, qətiyyəti ilə, Azərbaycan xalqının həmrəyliyi, birliyi və Azərbaycan Ordusunun rəşadəti ilə 30 ilə yaxın ermənilər tərəfindən işğal altında saxlanılan torpaqlarımız işğaldan azad edildi və məhz bununla da Qarabağ problemi tarixdə qaldı. Belə bir problem artıq yoxdur.

Məsələ burasındadır ki, indi əvvəla işğalçı ölkə ilə delimitasiya və demarkasiya məsələləri var, sülh müqaviləsi imzalanmalıdır ki, buna da mane olan qüvvələr mövcuddur. Bu qüvvələr aranı qarışdırmaq və qarışıqlar yaratmaq istəyirlər ki, bundan çirkin niyyətlər üçün istifadə etsinlər. Bu həm də bölgədə separatçılıq meyillərinin də artmasına şərait yaratmaq meyillərində özünü göstərir, hansıki, ilk növbədə bunun qarşısının alınması müzakirə olunmalı, həlli yolları tapılmalıdır. Çünki, əslində terrorçuluq və separatçılıq təkcə Azərbaycanın deyil, bütün dünyanın problemidir və bundan əziyyət çəkən yalnız biz deyilik. Heç bir ölkə terrorçuluqdan və separatçılıqdan sığortalanmayıb. İstənilən ölkədə bu kimi meyillərin mənfi təsiri gözləniləndir və bunun üçün də qlobal şəkildə müzakirəsinə daim ehtiyac duyulur.

Digər tərəfdən müharibə bitdikdən sonra ərazilərimizdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi, həmin ərazilərdə həyatın bərpa edilməsi həlli vacib məsələlərdəndir. Əvvəla ona görə ki, tarixi ədaləti bərpa edən, işğal alrında olan əraziləri öz sahiblərinə qaytaran Azərbaycan həmin ərazilərə də sahiblərinin dönüşünü, "Böyük Qayıdışı" təmin etməkdədir və bu istiqamətdə tədbirlər görülür, layihələr reallaşdırılır. Həmin ərazilər minalardan təmizlənir, ərazilərdə infrastruktur layihələri həyata keçirilir, yaşayış və inzibati binalar tikilir, bir sözlə, yaşayış şəraiti bərpa edilir ki, bu prosesin nə qədər vacib olması heç kim üçün sirr deyil. İndi bu ərazilərdə iqtisadiyyatın bərpası, kənd təsərrüfatı sahəsində görüləcək işlər də həlli vacib məsələlərdəndir və nəzərə alsaq ki, həmin ərazilərə investisiyaların yatırılması, xarici investorların da cəlb olunması mümkündür, deməli, bu məsələ də öz aktuallığını qoruyur. Çünki, sabitliyin, təhlükəsizliyin təminatı hər zaman ön planda durur və bunun üçün əməkdaşlıq çox vacib faktordur.

Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Bu, olduqca mühüm məsələdir və biz artıq bunun şahidiyik. Ölkəmiz hər zaman qlobal layihələrin həm təşəbbüskarı, həm təşkilatçısı, həm də iştirakçısı kimi çıxış edib. Bu layihələri sadalamağa da ehtiyac yoxdur, ona görə ki, indi bütün dünya ictimaiyyəti bu barədə məlumatlıdır. Azərbaycan xarici siyasətdə tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə geniş bir coğrafiyada təhlükəsizlik və sabitliyə nail olmaq üçün ölkələrlə yaxın əlaqələr qurur. Bu fakt indi kimin üçünsə sir deyil və təbii ki, bu müzakirələrin aparılmasında da ölkəmiz hər zaman olduğu kimi, yenə də haqlıdır. Ona görə ki, Azərbaycan utilitar müstəvidə ancaq özünün qazanc götürməsinə deyil, bütövlükdə təhlükəsizliyə və sabitliyə apara biləcək qarşılıqlı faydalı əməkdaşlıq xəttinə sadiqdir. Yalnız bu əsasda müxtəlif sivilizasiyalar, dinlər, mədəniyyətlər arasında dialoq yaratmaq və bütövlükdə təhlükəsizliyi təmin etmək mümkündür.

Əlbəttə ki, Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla əlaqələr konkret məqsədə xidmət edir və bu göz önündədir. Azərbaycanın ölkələr və xalqlar arasında əməkdaşlıq, sülh və barış üçün çalışdığı da təkzibedilməzdir. Ölkəmiz digər dövlətlərlə müstəqil şəkildə, sabit qaydada və tam proqnozlaşdırılan metodlarla beynəlxalq hüquq normaları çərçivəsində münasibətlər qurur. Bu, tamamilə sülhə, əməkdaşlığa, qarşılıqlı faydaya və barışa xidmət edir. Əlbəttə ki, bu ənənəyə hər zaman olduğu kimi yenə də ölkəmiz sadiqdir və qlobal forumların keçirilməsində də basilica məqsəd elə budur. Bakıda bir çox beynəlxalq tədbirlər təşkil edilib. Konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və digər beynəlxalq tədbirlər keçirilib. Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yolu belə beynəlxalq tədbirlərin keçirilməsidir və gözlənilən nəticələrə nail olmaq üçün müzakirələrin aparılması vacibdir. Məhz bu baxımdan Azərbaycan qlobal forumların keçirilməsinə, müzakirələrin aparılmasına xüsusi yer ayırır. Təsadüfi deyil ki, ölkəmiz bu tədbirlərin bir çoxuna ev sahibliyi edir. Bu onun göstəricisidir ki, Azərbaycan hər zaman olduğu kimi yenə də əməkdaşlığın, sülhün, təhlükəsizliyin, sabitliyin, inkişafın tərəfindədir, keşiyindədir və bu ənənəsinə sadiqdir.

***İnam Hacıyev***

# Vətənin igid oğlu - Seyfur Yunusov!

**Quba rayonu Qonaqkənd qəsəbəsində dünyaya göz açan Yunusov Seyfur Zahid oğlu ürəkdən bağlandığı Vətənin yolunda qazi olub. Müqəddəs amallar işığında müstəqil həyatına qədəm qoyan Seyfur üçün ən böyük xoşbəxtlik Vətəninə, xalqına xeyirxah amillər hesabına gərəkli bir ömür yaşamaqdır. Seyfur ikinci Qarabağ savaşında Vətənin qeyrətini öz canından üstün bildi, torpağa tökdüyü qanla əzəmətli bir tarix yazdı. Özü yaralansa da, bədənində qəlpələr qalsa da, şərəfli bir ömür yaşayır.**







Yunusov Seyfur Zahid oğlu 1989-cu ildə Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olub. 2016-cı ildə kəşfiyyat-hazırlıq kursunu bitirərək, kəşfiyyatçı ixtisasına yiyələnib. "N" saylı hərbi hissənin kəşfiyyat taborunda xidmət edib. 2020-ci ildə Baş Qərargah rəisinin əmri ilə kiçik gizir rütbəsi alıb. 2020-ci ilin sentyabr ayının 27-dən döyüşlərə başlayıb. Murovdağ, Talış kəndi, Suqovuşan, Milli Qəhrəman Mübariz İbrahimovun şəhid olduğu postun alınmasında, eyni zamanda, yüksəkliklərin alınmasında fəal iştirak edib. Noyabr ayının 4-də 854-cü yüksəklikdə yaralanıb. Prezident İlham Əliyevin sərəncamına görə "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordenlə, "Suqovuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Quba rayonunun Qonaqkənd qəsəbəsində Yunusov Seyfur Zahir oğlu böyük bir adlı-sanlı nəslin nümayəndəsidir. Quba rayonunda Yunusovlar nəsli deyəndə, tanımayan yoxdur. Belə bir nəsildən də Seyfur kimi oğullar doğulmuşdur.

Igid oğlumuz Seyfurun atası Zahid müəllim uzun illər orta məktəbdə fizika və riyaziyyat müəllimi işləyib. Zahid müəllim qeyd edir ki, Seyfur bizim üçün ən əziz baladı, biz onunla fəxr edirik!

Elə də olmalıdır. Övladı böyüdəndə vətənpərvər böyütməlisən, bizim arzumuz vardı. Biz bütün nəsliklə Ali Baş Komandan hörmətli Prezidentə öz təşəkkürümüzü bildiririk. Tarix boyu bir qarış ermənilərdən torpaq götürə bilmədiyimiz halda, Prezidentimiz İlham Əliyev 44 gündə ildırım sürəti ilə hücuma keçərək ermənilər üzərində qələbə çaldı.

Bu yaxınlarda Respublikamızda "Zəfər günü" qeyd olunacaqdır. Bu bayramda Quba rayonunun Qonaqkənd qəsəbə qazisi Yunusov Seyfur Zahid oğlunun da əməyi vardır. Bu əmək heç vaxt danılmamalıdır.

***Məmmədhəsən Məmmədov***

## "Forum Azərbaycanın siyasi arenada əhəmiyyətini artırır"

"Ümumiyyətlə Nizami Gəncəvi Beynəlxalq Mərkəzində Qlobal Bakı Forumunun keçirilməsi Azərbaycanın beynəlxalq humanitar missiyada mühüm rol oynadığını göstərir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Onun sözlərinə görə, Azərbaycan bir neçə ildir ki, Beynəlxalq Humanitar Təşkilatların konfranslarına ev sahibliyi edir: "Ümumiyyətlə "Covid-19-dan sonra yeni dünya nizamı", "Yeni dünya iqtisadiyyatı", "Səhiyyə və əhalinin vaksinasiyası", "Cənubi Qafqaz regional inkişaf və əməkdaşlıq üçün prespektivlər" kimi bir sıra mövzuların keçiriləcəyi forumda Azərbaycanın dünyaya verdiyi töhfələr, xüsusilə də covid-19-a qarşı mübarizə dünya iqtisadiyyatında Azərbaycanın rolu, Qarabağ müharibəsindən sonra regionda sülhün və təhlükəsizliyin təmini istiqamətində mühüm rol oynayıb. Demək olar ki, regionda yeni bir səhifənin açılmasına töhfə verib. Mən hesab edirəm ki, belə bir konfransların ölkəmizdə keçirilməsi Azərbaycanın dünya beynəlxalq siyasi arenasında əhəmiyyətini artırır və Azərbaycan söz sahibinə çevrilir. Azərbaycan Qoşulmama Hərəkatının üzvü və bu hərəkata sədrliyi dövründə Bakıda mötəbər bir konfrans keçirildi. Azərbaycan bu tribunada dünyaya sülh və təhlükəsizliyin təmini istiqamətində təkliflərlə çıxış etdi. Həmçinin Covid-19-a qarşı mübarizədə birgə fəaliyyət üzrə öz təkliflərini bildirdi. Əlbəttə ki, Azərbaycanın bu istiqamətlərdə təklifləri nəzərə alınır və praktik cəhətdən icra edilir. Bakıda da bu kimi mövzularda konfransların, forumların keçirilməsi Azərbaycanın davamlı mövqeyini gücləndirəcək".

***Abutel İlhamqızı***

## "Bütün dünya gördü ki, Azərbaycan bir yumruq kimidir"



"Azərbaycan xalqının 30 ildən bəri intizarla gözlədiyi o gün nəhayət ki, 2020-ci ilin 10 noyabrında reallaşdı. Uzun illərdən bəri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən aparılan məqsədyönlü işlər, yürüdülən uzaqgörən siyasət, xüsusilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib. Onun sözlərinə görə, 10 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə - Qələbə Günü kimi qızıl hərflərlə yazıldı: "Məhz həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusu 44 günlük Vətən müharibəsini möhtəşəm qələbə ilə yekunlaşdırdı. Ermənistan bütün dünya ictimaiyyəti qarşısında məğlubiyyətini etiraf etməyə məcbur edildi.

Azərbaycan tarixinə, milli yaddaşımıza qızıl hərflərlə həkk olunan 10 noyabr yurdumuzun qəhrəmanlıq salnaməsi və şanlı qalibiyyəti kimi tarixə düşdü. 30 illik həsrətə son qoyan bu əzəmətli Qələbə düşmən işğalında olan əzəli torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi deməkdir".

Deputat sözlərinə belə davam edib: "Müzəffər Ali Baş Komandanımızın başçılığı ilə şanlı Azərbaycan Ordusu 28 ilin hər gününün qisasını aldı. Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə də sinə gərərək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Azərbaycan bütün dünyaya həm döyüş, həm də diplomatiya meydanında münaqişənin hərb yolu ilə həllinin mümkünlüyünü sübut etdi. Döyüş meydanında Azərbaycan əsgərlərinin qazandığı zəfər diplomatiya meydanında da uğurlara çevrildi və sonda danışıqların şərtlərini Azərbaycan tərəfi diktə etdi. 44 gün davam edən Vətən müharibəsi dövründə dünyanın nüfuzlu televiziya kanalına və informasiya agentliklərinə müsahibə verən Prezident İlham Əliyev Azərbaycana qarşı irəli sürülən bütün yalan informasiyaları ifşa etdi. Ölkə rəhbərimiz öz qətiyyətli siyasəti ilə nəinki cəbhədə, hətta informasiya sahəsində də ən məşhur xarici jurnalistlərin suallarını tutarlı tarixi faktlarla cavablandıraraq bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!".

"44 gün davam edən haqq mübarizəsi sayəsində bütün dünya gördü ki, Azərbaycan bir yumruq kimidir. İnanırıq ki, tarixin bu keşməkeşli sınağından üzüağ, alnıaçıq, şərəflə və qürurla çıxan Azərbaycan qələbəmizin rəmzinə çevrilən dəyərlərimizi daha da möhkəmləndirəcək və dünyanın formalaşmaqda olan yeni strateji mənzərəsində öz mövqeyini daha da gücləndirəcək".

***Ayşən Vəli***

# DİQQƏT:?

## Dolların qiyməti qalxır



**İQTİSADÇI EKSPERT AÇIQLADI**

"Manatın məzənnəsinə təsir göstərən əsas iqtisadi faktorlar ölkəyə daxil olan valyutanın həcmi eyni zamanda dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, nəzərə alsaq ki, valyutaya olan tələbin əhəmiyyətli hissəsi dövlət Neft Fondu tərəfindən ödənilir: "Bu baxımdan dövlət Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Nəzərə alsaq ki, xarici ölkələrdəki tərəfdaşlarımızda milli valyutaların məzənnələri də əslində iqtisadi faktorlardan biridir.

Xüsusən nəzərə alsaq ki, Azərbaycanın qeyri-neft sektorlarında xüsusi paya malik olan ölkələrdə və xüsusən Türkiyədə milli valyutaların məzənnəsində kəskin azalmalar müşahidə olunub. Nəticə etibarilə region ölkələrinin milli valyutalarının ucuzlaşmasına şahid oluruq. Dünya bazarında dolların möhkəmlənməsi prosesi baş verir. Dollar hətta Avropa puluna nisbətən son dövrlər hiss ediləcək dərəcədə möhkəmlənib. Amma Azərbaycanda hələ ki, məzənnə rejiminə keçirilməyib. Praktiki olaraq manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının qərarından asılıdır. Nəticə etibarilə Azərbaycan Mərkəzi Bankı prosesi intervesiyə etmək imkanlarına və digər intervesiya alətlərindən istifadə edə bilir. Ona görə də növbəti dövrlərdə manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

***Arzu Qurbanzadə***

# Vətən üçün canından keçənlər heç vaxt unudulmur!

## YAP Səbail rayon təşkilatının fəalları şəhidin barelyefini ziyarət ediblər

YAP Səbail rayon təşkilatı Vətən müharibəsində şəhid olan Həsənov Vüsal Ariz oğlunun əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Səbail rayonu, Badamdar qəsəbəsi, Gənclər küçəsində şəhidin ailə üzvlərinin yaşadığı fərdi yaşayış evinin qarşısında hazırlanan barelyefi ziyarət edib. Vətən müharibəsində Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Həsənov Vüsal Ariz oğlu döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra ”Vətən uğrunda” və ”Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.







Şəhid Vüsal Həsənovun ailə üzvləri şəhid ailələrinin, qazilərimizin, hərbçilərimizin Ölkə başçısı cənab İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın və Yeni Azərbaycan Partiyasının hər zaman diqqət və yüksək qayğısı ilə əhatələndiklərini bildirmişlər.

*Rəfiqə*

## YAP Qobustan rayon təşkilatının fəalları Nabur kəndində şəhidin məzarını ziyarət ediblər



Qobustan rayon İcra Hakimiyyətinin rəhbərliyi, Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının, hüquqmühafizə orqanlarının rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri, Qobustan rayonu Nabur kəndindən şəhid olan ”Vətən uğrunda”, ”Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuş Məmmədov Bəxtiyar Bayramşah oğlunun şəhadətinin ildönümü münasibətilə məzarını ziyarət etmişlər, şəhidin məzarı önünə tər gül dəstələri düzüb, onun əziz xatirəsinə ehtiramlarını bildirib, ruhuna dualar oxunmuşdur. Anım mərasimi ilə əlaqədar keçirilən tədbirdə şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışılmışdır.



*Rəfiqə*

## Oğuzda şəhid Elman Babayevin doğum günü qeyd olunub

Vətən müharibəsi şəhidi, Oğuz rayonunun Padar kənd sakini şəhid Elman Tahir oğlu Babayevin doğum günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Yeni Azərbaycan Partiyası Oğuz rayon təşkilatının fəalları, rayon ictimaiyyətinin nümayəndələri, həmçinin məktəblilər iştirak ediblər. Ziyarətçilər şəhidin Oğuz rayonunun Şəhidlər Xiyabanında məzarını ziyarət edərək, əziz xatirəsini yad ediblər, ruhuna dualar oxunub. Şəhid Elman Tahir oğlu Babayev 1994-cü il noyabrın 1-də Oğuz rayonunun Padar kəndində dünyaya göz açıb. Ailəlidir. İki övladı - Ümid və Nişanə adlı yadigarları bizlərə əmanət qalıb.





Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşub şəhid olmuş əsgər Babayev Elman Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra ”Vətən uğrunda”, ”Kəlbəcərin azad olunmasına görə”, ”Hərbi xidmətlərə görə” medalı ilə təltif edilib.

*ZÜMRÜD*

## Zaqatalada şəhid Abakar Hacıyevin xatirəsi anılıb

YAP Zaqatala rayon təşkilatının rəhbərliyi, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, rayon hüquqmühafizə orqanlarının rəhbərləri, din xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən





müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Dardoqqaz kənd sakini Hacıyev Abakar Məhəmməd oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, məzar üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirələrini böyük ehtiramla yad ediblər. Daha sonra şəhid ailəsini ziyarət edib, onların qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib və vətəninə sədaqətli gənc kimi cəmiyyətin rəğbətini qazandığını vurğulayıblar.

Şəhidimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya gbrə minnətdarlıqlarını ifadə ediblər. Şəhidlərimizin ruhları şad, məkanları cənnət olsun.

*Z. BAYRAMOVA*

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət ediblər

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət edib Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 31 oktyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Əsgərabad kəndindən olan şəhid Rüstəmli Kənan Yalçın oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər. Daha sonra Şəhidin məzarı ziyarət edilib və dərin ehtiramla yad edilərək məzarının üzərinə tər gül dəstələri qoyublar. Allah rəhmət eləsin!

*R. Kamalqızı*



TƏRS BAXIŞ

# Nə zamandan

## Elçibəyçi oldun, Əli İnsanov?

### Ənənəvi müxalifət HƏP sədrinə dəstək əli uzatmayacaq

Əqidə dəyişən şəxsə etibar etmək olmaz, çünki beləsi əqidənin nə olduğunu əsla anlaya bilməz. Bu, danılmaz aksiomadır. Bəli, müəyyən küskünlüklər, inciklikləri, hər hansı bir əks fikirlər yarana bilər, amma bu, o demək deyil ki, dərhal, düşünmədən əqidə dəyişkənliyinə əl atasan. Yəni kim ki, nə zamansa öz şəxsi və ya fərdi mənfəətləri (!) naminə əqidəsini dəyişirsə, bir gün açdığı növbəti qapını da çöldən bağlayıb digər qapıya doğru yüyürəcək. Ona etibar və etimad göstərənləri isə pis vəziyyətdə qoyacaq. Hətta əlinə imkan düşərsə, çörək verən əli belə dibindən kəsməyə hazır olacaq. Bu günə qədər hakimiyyətin etibar etdiyi belə adamlar az olmayıb və onlardan biri də yenicə qeydiyyatdan keçmiş Haqq və Ədalət Partiyasının (HƏP) sədri Əli İnsanovdur. Uzun illər nazir vəzifəsini icra edən bu şəxsin keyfiyyətləri barəsində hələ o zamanlar bir dənə də olsa müsbət fikirlər səslənmirdi. Onun qabalığı, mənəm-mənəmliyi, ictimai yerlərdə, tədbirlərdə sərgilədiyi davranışları, xüsusilə, media mənsublarına qarşı məlum münasibətləri də unudulmayıb. Və ən əsası, bu adamın ona göstərilən yüksək etimad və etibardan sui-istifadə edərək çevriliş cəhdində bulunması əsla yaddan çıxası məsələ deyil. Beləliklə, tarix silinəsi deyil. Amma ki...



**Əli İnsanovun sonda ölməli olacaq ümidi elə əvvəlcədən öz canını tapşırıb...**

Məsələ ondadır ki, həbsxanadan çıxar-çıxmaz hakimiyyətin humanistliyinə deyil, nədənsə (?!) Amerikaya təşəkkür edən, Qərbə minnətdarlıq bildirən Əli İnsanov dərhal özünü "müxalifətin lideri" kimi təqdim etdi, üstəlik, partiya da yaratdı. Bu gün onun sədri olduğu HƏP-inin hansı hap-goplardan çıxaraq oyunbazlıqlar nümayiş etdirməsi isə sadəcə süni, quru və təsirsiz görünür. Necə deyərlər, hər şeyin də öz vaxtı var və İnsanovun müxalifət partiyası yaradıb bundan sonra qalan üç-beş illik ömrünü "hakimiyyətə yiyələnmək" məqsədinə sərf etməsi də inandırıcı görünmür. Hətta belə desək, əgər ümid sonda ölürsə, Əli İnsanovun ümidi elə əvvəlcədən öz canını tapşırıb, mövcud vəziyyətdə isə hər şey göz önündədir.

İndi o öz partiyasının qərargahında vurhavurla qəbullar keçirir, digər müxalifət partiyaları ilə guya (!) səmimi söhbətlər aparır, demək istəyir ki, mən də varam və s. Fəqət varmı, yoxmu? Bunu da qısa zaman kəsiyi göstərəcək. Ancaq bu arada diqqət çəkən məqam da var və əslində, rubrikanın mözusu da həmin məqama aiddir.

**Mərhum Elçibəy də bunu sağ ikən bilsəydi...**

Əli İnsanov öz ofisində Müsavat Partiyasının sədri Arif Hacılını qəbul edib və görüş haqqında yayılan fotolar ortaya maraqlı mövzu çıxarıb. Təqdim etdiyimiz fotolardan da məlum olur ki, yenicə qeydə alınmış HƏP sədri özünün otağında Məhəmməd Əmin Rəsulzadənin və Əbülfəz Elçibəyin portretlərini asıb - yəni dönüb olub "Rəsulzadə yolu ilə gedən Elçibəyçi". Heyif, əgər dahi Rəsulzadə bilsəydi ki, nə vaxtsa Əli İnsanov kimi bir əqidəsini satmışın kabinetində onun portreti asılacaq... Və ya mərhum Elçibəy də bunu sağ ikən bilsəydi...

Nə deyəsən? Həyat görün necə hadisələri bizlərin qarşısına çıxarır. Nazir olarkən hər çıxışında bu iki şəxsiyyətləri düşmən sayan, onlara olan münasibətini də hər zaman düşməncəsinə ifadə edən HƏP sədri indi onların portretlərini asıb başı üzərindən, niyə əcəba? Bu sualın da cavabı bəllidir: o özünə məhz ənənəvi müxalifət cinahından dəstək axtarmağa başlayıb, çünki yaxşı bilir ki, müxalifətdə olmayan heç kim ona dəstək göstərməyəcək. Heç müxalifətin üzdə olan partiyaları da HƏP-ə tərəf dəstək əli uzatmayacaqlar - nə Müsavat, nə AXCP, nə VİP, nə ADP, nə KXCP, nə Ümid, nə AMİP nə də digərləri. Onlar da Əli İnsanovun kim və nə olduğunu çox yaxşı bilirlər...

*Rövşən RƏSULOV*

# "İran baş verənlərdən dərs çıxarmaq niyyətindədir"

EKSPERT RƏYİ

**"İsrailin Azərbaycandakı səfiri Corc Dik "Tvitter" hesabında dövlətimizin regional siyasəti ilə bağlı paylaşımı çox ciddi siyasi mesaja malikdir. Ölkəmizlə dostluğu yüksək qiymətləndirən diplomat yazıb: "Heç bir üçüncü dövlət, heç kim bizim münasibətlərimizə nə qarşı, nə də mane ola bilər. Bizim əməkdaşlığımızın gələcəyinin parlaq olacağına və İsraillə Azərbaycan arasında daha çox iş birliyi görəcəyimə ümid edirəm". Şübhəsiz ki, bu, hər kəsdən əvvəl İrana mesaj idi". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Kənan Novruzov deyib.**

Ekspertin sözlərinə görə, İran- Azərbaycan, İran-İsrail münasibətləri kimsəyə sirr deyil: "Tel-Əviv Tehrana demək istəyir ki, adekvat davranış sərgilə, əks halda, bunun hesabını verməli olacaqsan. Onsuz da İsrail İrana "qulaq burması" vermək üçün bir "girəvə" axtarır. Doğrudur, İsraillə münasibətlərimiz daha yaxın müttəfiqlərlə olduğu kimi deyil amma əməkdaşlıq formatındadır, şəffafdır. Və İranın Azərbaycana qarşı aqressiv mövqeyi qarşılığında İsrailin hansısa addımı ilk növbədə onun öz maraqlarına uyğundur. Cənub qonşumuzun son günlərdəki dəyişən davranışı, geri çəkilməsi bir tərəfdən Azərbaycan və qardaş Türkiyənin mövqeyi ilə bağlıdırsa, əlbəttə, həm də Corc Dikin mesajından dərs çıxarmasının göstəricisidir".



K.Novruzov vurğulayıb ki, İran xarici işlər naziri Hüseyn Əmirabdullahianın "Azərbaycanla açıq gərginlik mərhələsi başa çatıb" bəyanatı da iki istiqamətdə təhlil edilməlidir: "Birincisi, rəsmi Tehran bu açıqlama ilə indiyədək qonşuluq, müsəlmanlıq prinsiplərinə zidd şəkildə münasibətlərin gərgin olduğunu etiraf etmiş oldu. İkincisi isə İran, görünür, baş verənlərdən, regiondakı geosiyasi reallıqdan dərs çıxarmaq niyyətindir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Ümid edirik ki, İran sağlam düşüncə ilə hərəkət edəcək. Əgər, belə olarsa, İranla Azərbaycan arasında heç bir problem olmayacaq" açıqlaması isə Tehranın bundan sonra Bakı ilə münasibətləri üçün "yol xəritəsi" olmalıdır. Əks halda İranın nəinki regionda, beynəlxalq müstəvidə "ofsaytda" qalması istisna deyil".

*Aysel Məmmədova*

# Yaşlı insanların psixologiyası necə olur - ?

PSİXOLOQ AÇIQLADI

"Yaşlı insanların psixologiyasına köklü dəyişikliklər olur. Bu əslində gəncliyini, uşaqlığının necə keçirən insanlardan da asılıdır. Məsələn, əgər şəxs uşaqlığında, yeniyetməliyində böyük travmalar yaşayıbsa əlbəttə ki, gənclik dövrünü çətin keçirən insan-



ların yaşlılıq dövrü də çətin olur və onlarda müəyyən itirmək qorxusu, ölüm qorxusu, həyəcan pozulması, təşviş pozuntusu, panikalar digər insanlara baxanda daha çox olur". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib.

Onun sözlərinə görə, yaşlılıq psixologiyası ümumiyyətlə hər bir insanın genetikasına bağlıdır: "Yəni yaşlılıq psixologiyasında əsasən fizioloji və bioloji dəyişikliklər də nəzərə alınır. Burada hər 3 faktor dəyişir ki, bu həm bioloji, həm fizioloji dəyişiklik, həm də psixoloji dəyişiklikdir.

Bu dövr fərqli olur. Kişilərdə daha çox aqressiya ilə qısqanclıqla, əsəblə özünü göstərir. Xanımlarda daha çox özünü təsdiqlə, daha çox azad olmaq istəyi ilə, rahat həyata keçmək istəyi ilə özünü göstərir. Bəzilərində fiziki ağrılar baş verir və bu psixosomatik olur. Yəni psixoloji narahatçılıqlara baxarkən psixoloji narahatçılıqlar insanlarda psixosomatik ağrılara da gətirib çıxarır. Bel ağrıları, ayaq ağrıları, kürək ağrıları bu isə onların həyatlarının ağır olması göstəricisi olur, həyatları yüngül keçən yaşlılarda isə daha rahat, daha pozitiv və daha əylənəcli olur. Çünki nəvələri olur və artıq başı onlara qarışır, işləmir, evdə olur, ailəsi ilə daha çox vaxt keçirir. Amma hansı şəxs ki, daim işləyir, daim həyəcanlı, narahat işlərdə olur, onların yaşlılıq psixologiyalarında da köklü fərq olur".

*Ayşən Vəli*

# BMT açıqladı:

## Son yeddi il tarixdə ən isti illər olub

**Oktyabrın 31-də Qlazqoda BMT-nin iqlim konfransı işə başlayıb. Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) bu münasibətlə dərc edilmiş yeni məruzəsində göstərilir ki, son yeddi il meteoroloji müşahidələr tarixində ən isti illər olub, bu müddətdə dünya okeanının səviyyəsi isə artaraq yeni maksimuma çatıb.**

ÜMT-nin 2021-ci il üçün ilkin hesabatında BMT-nin bir sıra agentliklərinin, milli meteorologiya və hidrologiya xidmətlərinin məlumatları, habelə aparıcı elmi ekspertlərin proqnozları toplanıb.

BMT-nin Baş katibi Antonio Quterreş bu məruzənin dərc edilməsi ilə əlaqədar video-müraciətində deyib: "ÜMT-nin qlobal iqlim vəziyyəti barədə hesabatından görünür ki, planetimiz gözlərimizin qarşısında dəyişir. Bütün dünyada ekosistemlər dağılır. Alimlər öz sözlərini deyiblər, indi növbə siyasi liderlərindir. Biz öz gələcəyimizi qorumaq və bəşəriyyəti xilas etmək üçün dərhal fəaliyyətə başlamalıyıq".

ÜMT-nin yeni məruzəsi BMT-nin Qlazqoda keçirilən iqlim konfransında əsas sənədlərdən biri olacaq. Bu məruzə forum iştirakçılarının danışıqları zamanı elmi baza kimi istifadə ediləcək. Dənizlərin orta səviyyəsinin dəyişməsi ilk növbədə dəniz suyunun istiləşməsi və quruda buzların əriməsi nəticəsində okeanın istiləşmə dərəcəsindən asılıdır.

1993-2002-ci illərdə dəniz səviyyəsinin orta artımı ildə 2,1 millimetr olduğu halda 2013-2021-ci illərdə müvafiq göstərici 4,4 millimetrə çatıb. Bu, əsas etibarilə buzların kütləsinin sürətlə itirilməsi ilə bağlıdır.

Bu il iyulun 9-da Ölüm Vadisində (Kaliforniya) temperatur Selsi şkalası üzrə 54,4 dərəcəyə çatıb. Bu, 2020-ci ilin rekord göstəricisinə bərabərdir. Ümumiyyətlə, builki yay Birləşmiş Ştatların kontinental hissəsinin tarixində ən isti yay olub.



Son 10 ildə hava ilə bağlı ekstremal hadisələrin tez-tez baş verməsi iqtisadi sarsıntılara səbəb olub. COVID-19 pandemiyası nəticəsində vəziyyət daha da kəskinləşib, ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması məsələsində son onilliklərdə əldə edilmiş irəliləyiş öz əhəmiyyətini itirib.

# Ermənistanda

## vəziyyət ağırlaşır, kommunikasiyaları açmağa məcburdur

## Darya Qrevtsova: “Paşinyan öz cəmiyyətini inandırmalı olacaq ki, Azərbaycanla əməkdaşlıqdan bütün erməni xalqı faydalanacaq”

**Xəbər verdiyimiz kimi, Ermənistanın baş naziri Nikol Paşinyan Milli Assambleyanın iclasında çıxışı zamanı kommunikasiyaların açılmasının zəruriliyindən və Ermənistanın bu ideyanı dəstəkləməyə hazır olmasından danışıb.**

“9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda kommunikasiyaların bərpasından bəhs edilir və Ermənistan bu ideyanı dəstəkləyir. Bu problemin həlli sülh və təhlükəsizliyə müəyyən təminatlar yaradır və İrəvan məsələyə məhz bu qavrayışla yanaşır”,- deyə baş nazir əlavə edib ki, gələcək yüklərin daşınması üçün marşrutlar məsələsi hazırda müzakirə olunur.

Ermənistanın baş naziri digər məsələlərlə yanaşı, bölgənin Rusiyanın Baş Qərargahındakı xəritələrinin İrəvanın xəritələri ilə üst-üstə düşdüyünü deyib.

Qeyd edək ki, Paşinyan belə bəyanatlarla Azərbaycan, Rusiya və Ermənistan liderlərinin qarşıdan gələn üçtərəfli görüşü ərəfəsində çıxış edib. Bu görüş barədə daha əvvəl mətbuatda məlumat yayılmışdı.

Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktor müavini, politoloq Darya Qrevtsova Ermənistan baş nazirinin çıxışını və üçtərəfli razılaşmanın mümkün variantlarını “Caliber” analitik mərkəzinə şərh edərkən Paşinyanın açıqlamalarını ümidsizlik amili adlandırıb.

“Paşinyan kommunikasiyaların açılmasından danışdı, çünki ondan bunu həm Rusiya, həm də Azərbaycan, hətta ona səs verən seçicilər də gözləyir və indi Ermənistanda aşağı həyat səviyyəsini hansısa yolla yaxşılaşdıra biləcək bəzi real addımlara və hərəkətlərə ümid edirlər.

Hər şeyi onilliklərlə dondurmaq mümkün deyil. Ona görə də üçtərəfli sammit infrastruktur layihələrinin müzakirəsi və çətin məqamların daha rahat həlli üçün faydalı olardı. Amma başa düşmək lazımdır ki, Ermənistanın indi sülh sazişi imzalaması ehtimalı azdır, çünki nə Paşinyan, nə daxili elita, nə də xalqın özü Azərbaycanın ərazi bütövlüyünü və Qarabağın qaytarılmasını tanımağa hazır deyil. Onlar hələ məğlub olduqlarını qəbul etməməkdən əl çəkməyiblər və baş verən hər şeyə gözlərini yummağa çalışırlar. Radikallar qisas almağa çağırır, digər elitalar isə sadəcə olaraq gözləmə mövqeyi tutdular.

Kommunikasiya blokunun açılması 2020-ci ilin noyabrında imzalanmış bəyanata uyğun olaraq həyata keçirilməlidir. Üstəlik, buna sülh sazişi imzalanmadan da nail olmaq olar, bir şərtlə ki, bəzi ölkələrin, məsələn, Rusiya və Türkiyənin vasitəçiliyi olsun”,- rusiyalı politoloq bildirib.

Darya Qrevtsovanın sözlərinə görə, üçtərəfli sammit zamanı sərhədlərin demarkasiyası və delimitasiyası ilə bağlı müzakirələrdə fikir ayrılıqları istisna edilmir: “Bu, çox çətin mövzudur və həqiqətən də çoxlu mübahisəli məsələlər var, ona görə də Rusiyanın danışıqlarda iştirakı zəruridir, çünki nə Ermənistanın, nə də Azərbaycanın bir-biri ilə sərhəd qurmaq təcrübəsi yoxdur. Hesab edirəm ki, tərəflərin burada razılığa gəlməsi çətin olacaq, xüsusən də, Ermənistanın hazırkı əhval-ruhiyyəsini nəzərə alsaq. Onlar hələ məğlubiyyət sindromundan çıxmayıblar və Ermənistana aid olmayanı özlərinə qaytarmaq istəyirlər. İnanıram ki, Vladimir Putin və İlham Əliyevin danışıqlarda rolu çox mühüm olacaq.



Erməni tərəfinin çətinlikləri həm də Ermənistanın özündə ictimai rəyin Paşinyana təzyiq etməsi ilə bağlıdır. Əgər o, Azərbaycana ciddi güzəştlər etsə, bu, etiraza çevrilə bilər və o, sadəcə olaraq devrilər. Deməli, Ermənistanın baş naziri baş verə biləcək danışıqların nəticələrinə ictimai rəyi hazırlamalıdır. Paşinyan üçün vacibdir bilsin ki, onun qəbul etdiyi qərarlar nə Ermənistan elitası, nə də xalqın özü tərəfindən onun zəifliyi amili kimi qəbul edilməyəcək. Ona görə də o, cəmiyyəti inandırmalı olacaq ki, Azərbaycanla əməkdaşlıqdan bütün erməni xalqı faydalanacaq, baxmayaraq ki, bu, çox çətin missiyadır. Amma bu və ya digər şəkildə sammitin sonunda müəyyən dəyişikliklər müşahidə olunacaq.

Eyni xəritələrin İrəvanda da olmasından danışan Paşinyan öz xalqı və elit qruplar qarısında ərazilərin verilməsinə haqq qazandırmağa çalışır, demək istəyir ki, sərhədlərin demarkasiyası və delimitasiyası Rusiya Federasiyasında olan xəritələrə görə yox, Ermənistan xəritələri ilə aparılacaq. Bu yolla o, əhalisinin qarşısına çıxmaq istəyir”- deyə D. Qrevtsova hesab edir.

Qərb ölkələrinin Qarabağla bağlı reaksiyasına gəlincə, rusiyalı politoloqun fikrincə, onlar Azərbaycanla Ermənistan arasında münasibətlərin tənzimlənməsinə qarışmayacaqlar.



“Hazırda onların Cənubi Qafqaz problemi ilə məşğul olmağa vaxtları yoxdur. Amma köhnə elitanın, Qarabağ klanının tərəfdarı olaraq qalan Fransa və ABŞ-dakı erməni diasporları Paşinyanın hərəkətlərini pisləyəcək və hətta ola bilsin ki, öz medialarında yazacaqlar ki, Paşinyan Azərbaycana uduzur, o, Moskvadan üz döndərməlidir, çünki Rusiya bütün üstünlükləri öz üzərinə götürməyə çalışır və bu, ümumilikdə o demək olacaq ki, Qərb dövlətləri təkcə Azərbaycan və Ermənistan arasında sülh sazişinə qarşı deyil, həm də Rusiyanın sülhməramlı missiyasına qarşıdırlar. Onlar Ermənistan vasitəsilə Rusiyaya təzyiq göstərməyə və onu əlverişsiz vəziyyətə salmağa çalışacaqlar ki, bu da İrəvanda yerli qərbyönlü elitaların əlinə oynayır”,- deyə politoloq davam edib.

Daha sonra rusiyalı ekspert Ermənistandakı iqtisadi vəziyyətə toxunub: “Ermənistanda iqtisadi vəziyyət ağırdır, biz hər hansı istehsal müəssisələrinin, yolların açılması ilə bağlı heç bir xəbər eşitmirik, amma Azərbaycanda belə olur, o qədər erməni işləmək üçün başqa ölkələrə gedib oradan qazandıqları pulu ailələrinə göndərirlər. Bu acınacaqlı vəziyyət əhalini gərginləşdirir. Ona görə də xalqın bir hissəsi ümid edir ki, Paşinyan bu vəziyyəti dəyişə bilər və Azərbaycanla Ermənistan arasında sazişin imzalanması ən azı yeni iş yerlərinin açılmasına töhfə verə bilər. Və bu, real ola bilər, əgər kommunikasiyaların bloklanması açılarsa, yeni layihələr, o cümlədən biznes layihələri meydana çıxa bilər ki, bu da investisiyaların iqtisadiyyata gedəcəyi deməkdir”.






***Tərcümə - Elçin Bayramlı***

# Mövcud olmayan qurumun yoxolmuş “rəsmisi”nin aqibəti indidən bəllidir

**“Tədbirin keçiriləcəyi ilə bağlı xəbəri mövcud olmayan qurumun yoxolmuş ”rəsmisi” bildirirsə buna əhəmiyyətli reaksiya verməyə belə dəyməz. Amma, ancaq və lakin bu o demək deyil ki, qulaqardı etməliyik. Əgər bu cür tədbir keçirməklə öz ağıllarınca ”erməni kilsələrinin albanlaşdırması”na ”qəti bir nöqtə” qoyacaqlarını zənn edirlərsə, o zaman unutmasınlar ki, Azərbaycan dövləti də nöqtəni nidaya çevirməyi ən gözəl şəkildə onlara sübut edib, özü də cənab Prezident İlham Əlieyin dediyi kimi: ”Necə lazımdır!”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.**



Ekspertin fikrincə, Azərbaycan dövləti öz milli maraqlarını qorumaq üçün indiyə qədər atdığı təxirəsalınmaz, qətiyyətli addımlarla bu təxribata da cavab verəcək: ”Təbii ki, burada müxtəlif üsul və vasitələrdən söhbət gedir. Bunlardan biri kimi Xankəndiyə qanunsuz səfər edən şəxslərə Azərbaycana giriş qadağan ediləcək. Yəni, onlar qara siyahıya salınacaqlar. Azərbaycanın razılığı olmadan digər ölkələrin hüquqi və fiziki şəxslərinin Azərbaycan ərazisinə daxil olması qəti yolverilməzdir, qanunsuzdur və bu kimi hallar ölkəmizin qanunlarının pozulmasıdır. Bu ilk deyil, indiyə qədər də bu kimi hallar yaşanıb. Həm də bu, təkcə siyasətçilərə qarşı deyil, tanınmış müğənnilərə, futbolçulara, jurnalistlərə, blogerlərə tətbiq olunmuşdu. Bununla yanaşı, sülhməramlılar da burada vəzifə səlahiyyətlərini düzgün icra edərək onların girişinə icazə verməli deyillər. Daha öncə də olmuşdu belə bir hal, sülhməramlılar bildirmişdi ki, Azərbaycanın icazəsi olmadan giriş mümkün deyil. Eyni münasibətlə bütün analoji halların qarşısı alınmalıdır. Zənnimcə, burada digər bir önəmli sual ondan ibarətdir ki, Xankəndində qalan ermənilər öz gündəlik məişət tələbatlarını ödəməkdən başları açıldımı ki, hələ bir tədbirlər keçirmək kimi bir lüksları da olsun? Bunun da cavabı bəllidir ki, tədbirin keçirilməsində proseslərin gələcəyə doğru aparılmasının qarşısını almaq istəyən daxili revanşist və xarici maraqlı tərəflər mövcuddur. Regionda mövcud vəziyyət cənab Prezident İlham Əliyev tərəfindən müxtəlif nüfuzlu media qurumlarına verilən müsahibələr vasitəsilə çatdırılır”.

Politoloqun sözlərinə görə, burada daxili revanşistlərin və xarici qüvvələrin marağı var ki, regionda gərginliyi saxlasınlar, ya guya regionda hələ də gərginlik mövcuddur fonu yaratmaqla, beynəlxalq rəyi çaşdırsınlar: ”Bu məsələyə münasibəti qardaş Türkiyə dövlətinin başçısı Ərdoğanın nitqinə istinadən demək yerinə düşər ki, regionda gedən prosesləri kiçik hesablara, daxili siyasi oyunlara qurban verməyək. Belə ucuz tədbirlər, məsuliyyətsiz və təxribatçı davranışlar qəbuledilməzdir, çünki bu, bölgədə münaqişə sonrası sülh quruculuğu səylərinə ciddi xələl gətirən addımlardır. Onu da nəzərə alsaq ki, ”Artsax”ı nəinki beynəlxalq aləm, heç Ermənistanın özü belə tanımayıbsa konfransa beynəlxalq qoşmasını əlavə etmək gülüncdür. Beynəlxalq konfranslara adətən nüfuzlu alimlər, beyin mərkəzlərinin nümayəndələri yığışırlarsa və bölgədə mövcud olan durum da rəsmi şəxslər vasitəsilə dünyaya çatdırılırsa o zaman hansısa dar maraqlara xidmət edən tədbirə heç bir səviyyəli alim gəlməz. Eyni zamanda, regionun nüfuzlu dövlətinin qara siyahıya düşmək məsələsini gözönündə tutan heç bir nüfuzlu alim buna getməz. Dövlət başçımız dəfələrlə mövqeyimizi ortaya qoyub ki, orada yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdır. Azərbaycan dövləti multikultural dəyərləri prioritet sayan bir dövlət kimi digər azsaylı etnik nümayəndələrin mədəni tədbirlərinin keçirilməsi üçün yaradılan şəraiti ermənilərə də təmin edə bilər, amma söhbət beynəlxalq təbdirdən gedirsə, Xankəndi də Azərbaycanın ərazisi olduğu üçün icazəni məhz və yalnız Azərbaycan dövləti verə bilər. Ermənilərin belə bağrı ağdırsa, öz uydurma tarixlərindən əmindirlərsə nüfuzlu dünya alimləriniin iştirakı və müşaiyəti ilə və Azərbaycanın da icazəsi ilə azərbaycanlı və erməni alimlər birgə tədbir keçirsinlər. Lap elə Türkiyənin də dəfələrlə açıq şəkildə təklif etdiyi kimi 1915-ci ilin arxiv səbədləri də açılsın görək kim haqlı kim haqsız çıxacaq. Lakin onlar tarixlərinin uydurmadan ibarət olduqlarından əmin olduqları üçün belə təxribatçı tədbirlərə əl atırlar”.

Ş.Həsənova vurğulayıb ki, zaman məfhumu baxımından analiz etsək tədbirin növbəti ilin martında keçirilməsi planlaşdırılır: ”Nəzərə alsaq ki, noyabrın 10-u üçtərəfli bəyanatın, yanvarın 11-i isə Moskva bəyanatının imzalanmasının bir ili tamam olur, Zəngəzur dəhlizinin təməli qoyuldu və düşünürəm ki, o vaxta qədər də üçtərəfli görüşün keçiriləcəyi ehtimalları yüksəkdir, bu kimi tədbirlər heç bir halda əsas nəticəyə təsir etmək gücünə malik deyil. Bundan öncə də qondarma Qarabağ rejiminin yaradılmasının 30 illiyi ilə bağlı Xankəndi şəhərində bayram tərdbirləri keçirilməli idi ki, ”prezident” Arayik Arutyunyan geri addım ataraq qondarma rejimdə heç bir bayram tədbiri olmayacağını bildirmişdi. Ya götürək elə Xankəndində keçirilən yas mərasimini xatırladan hərbi paradı. O tədbirlərin aqibəti necə oldusa, əminəm ki, bu tədbirin taleyi də digərlərindən fərqlənməyəcək. Bütün bunlarla yanaşı, düşünürəm ki, necə döyüş meydanında mübarizlik göstərdiksə bundan sonra da informasiya savaşını hələ də sürdürməliyik. Ən əsası da ideoloji sahədə başlatdığımız işləri daha da genişləndirərək tarixçilərimiz elmi-nəzəri əsaslarla davam etdirməlidir”.

***Aysel***

# “Nar” yerli İKT peşəkarlarının yetişməsinə dəstək olur

***“Nar” mobil rabitə bazarında yerli kadrların yetişdirilməsi və gənclərin təhsili başa vurduqdan sonra qısa müddət ərzində peşəkarlara çevrilməsi məqsədilə texniki ixtisaslar üzrə təhsil alan tələbələr üçün ”Mobil rabitənin əsasları” təlimini təşkil edir. Təlim ödənişsiz əsasda və ali məktəb rəhbərliyinin təşkilati dəstəyi ilə keçirilir.***

Əsas mövzusu mobil şəbəkənin iş prinsipi və rabitə texnologiyaları olan ”Mobil rabitənin əsasları” təlimi ali məktəblərin tədris proqramına faydalı əlavə kimi tələbələri mobil rabitənin təcrübi tərəfi barədə bilgiləndirir. Belə ki, bu təlim ”Nar”ın peşəkar texniki heyəti tərəfindən hazırlanır və həyata keçirilir. Bu səbəbdən, təlimdə iştirak edən tələbələr bilikləri birbaşa olaraq işin peşəkarlarından öyrənir və onlara maraqlı olan sualları ”Nar”ın nümayəndələrinə ünvanlaya bilirlər. Təlimin sonunda mobil rabitə sahəsində öyrəndikləri yeni biliklərin göstəricisi olaraq tələbələr ”Nar” tərəfindən sertifikatlarla təltif edilir. Bu il ilk təlim Azərbaycan Texniki Universitetinin tələbələri üçün keçiriləcək.

Qeyd edək ki, 2021-ci ilin əvvəlində KSM strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti və ”Nar” rəhbərliyi arasında görüş keçirilmiş və əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilmişdi. Keçirilən bu təlim də mobil operatorun korporativ sosial məsuliyyət strategiyasının tərkib hissəsi olmaqla yanaşı, Azərbaycan Texniki Universitetilə nəzərdə tutulan əməkdaşlıq istiqamətlərindən biridir.



İLHAM

# Korona işbazları karola çevirdi

Hər zaman tarixi kitablardan, bugünkü internet resurlarındakı xəbərlərdən oxuyur, məlumatlı şəxslərdən eşidir, bəzən də özümüz əyani şəkildə görürük ki, dünyamızda bədxahlar, oğrular, banditlər, cibgirlər, xain və satqınlar, eləcə də insan faciəsi üzərində torpaqlar ilhaq etməyə, sərvətlər qazanmağa cəhd edən məxluqlar az deyil. Elə məxluqlar da var ki, daha dərinə gedir, millətlərarası münaqişələr yaradır, müharibələr törədir. Nədi-nədi var-dövlət qazanacaq. Təbii ki, müharibə deyəndə göz önünə dağılmış şəhərlər, viran edilmiş ərazilər, müharibənin qurbanı olan insanlar gəlir. Yəni bir-iki nəfərin maraqları səbəbindən milyonlarla insan fəlakətlə üzləşir, minlərlə yaşayış məskəni xarabazarlığa çevrilir. Yazılı mənbələrə görə, dünya yaranandan bu günə qədər ümumilikdə 400 min dəfə irili xırdalı müharibələr baş verib və bu müharibələr zamanı 3.5 milyard insan həyatını itirib. Bütün müharibələr də o bir-iki nəfərin qurduğu fitnə-fəsadla baş verib. Tanınmış iqtisadçıların dediyinə görə, bu gün dünyada gedən müharibələrə bir ay ərzində 29 milyar da ABŞ dolları xərclənir ki, bunun da yarısını xərcləməklə bəşəriyyətin bəzi bölgələrində yaşanan aclığı, səfaləti tamamailə aradan qaldırmaq olar. Yəni gözlərini qan tutmuş məxluqlar müharibələri dayandırıb, xərcləri aclığın aradan qaldırılmasına yönəltsələr, o zaman Afrika qitəsində, Suriyada, İraqda, Əfqanıstanda və digər bölgələrdə qida çatışmazlığından ölüm yatağına uzanan insanları xilas etmək olar. Görünən isə ondan ibarətdir ki, bəşəri fəlakət “müharibə azarkeşləri”ni bəd əməllərindən çəkindirmir. Əksinə pul əldə etmək, vara-dövlətə sahib olmaq, xırda ölkələri əsarət altında saxlamaq istəklərini reallaşdırmaq üçün fəaliyyətlərini davam etdirməkdədirlər.

Yeri gəlmişkən pul yaxşı şeydir, hətta çox şirin şeydir demək olar. Bəzən elə olur ki, pul əldə etmək, vara-dövlətə sahib olmaq üçün heç də müharibə aparmağa ehtiyac duyulmur. Elə götürək bu gün dünyada tüğyan edən pandemiya dövrünü. İnsanları koronavirus bəlası elə sıxışdırıb ki, hansı diribaş məxluq hansı istiqamətə aparsa, nə təklif etsə, ona gedirlər, təki virus bəlasına mübtəla olmasınlar. Dağda-daşda, meşələrdə ətirli-qoxulu bitki qalmayıb, insanlar onları yığıb, çay yerinə dəmləyib, içirlər. Şəhərdə təsadüfən biri kəndçisi ilə görüşəndə salam-kəlamdan sonra xahişi, kənddən ona filan bitkini yığıb göndərməsi olur. Bir zamanlar bazarlarda piştaxta önündə günlərlə qalan bağ yarpağı, zəncəfil və digər bitkilər pandemiya səbəbindən ən tez satılan məhsula çevrilib, özü də baha qiymətə. Pandemiyadan qaz vurub, qazan dolduranların da sayı kifayət qədərdir. Yəni koronavirus pandemiyası dünya iqtisadiyyatını çökdürüb, əksər iş adamlarını müflis etsə də, pandemiya dövründə böyük sərvətlər qazananlar da az deyil. Ən çox qazananlar vaksin istehsal edən şirkətlərdir. Beynəlxalq maliyyə institutlarının yaydıqları məlumatlara görə, 2020-ci ildə dünyanın ən böyük 50 dərman şirkəti 851 milyard dollar qazanc əldə edib. Xüsusilə də, dünyanın aparıcı dərman şirkətləri olan “Johnson & Johnson”, “Roche”, “Pfizer”, “Eli Lilly” və “Novartis” şirkətləri dərman satışından 678,7 milyard dollar qazanıblar. Başqalarının cibini güdüb, onların pulunun məbləğini saymağa adət edən “Forbes” jurnalı koronavirus pandemiyası dövründə dünyanın 25 zəngin adamının qazancını hesablayıb. Jurnal iddia edir ki, “COVID-19” pandemiyasının tüğyan etdiyi dövrün ilkin iki ayı ərzində milyarderlər əlavə olarq 255 milyard ABŞ dollar qazanıblar. “COVID-19” pandemiyası dövründə ən çox gəliri “Facebook”un yaradıcısı Mark Zukerberq əldə edib. Onun gəliri 31,4 milyard ABŞ dolları artaraq 86,5 milyard ABŞ dollarına çatıb. Şirkətin səhmləri təqribən 60 faiz bahalaşıb. Dünyanın ən varlı adamı – “Amazon” şirkətinin rəhbəri Ceff Bezos göstərilən müddətdə 29,9 milyard qazanaraq kapitalını 146,9 milyard ABŞ dollarına qədər artırıb. Təəssüf ki, Azərbaycanda da yaranan fürsətdən istifadə edib, pul qazananlar var. Bu cür cibsoydu əməlləri müxtəlif sahələri əhatə edir. Bir il öncə apteklərdə qiyməti iki manata olan dərman bu gün 10-12 manata satılır. Xəstəxanalarda həkimlər var ki, pandemiyanın yaratdığı bəladan bəhrələnərək bir növ özlərinə biznes qurublar. Kənddən- kəsəkdən qoyununu, quzusunu dəyər dəyməzə satıb, Bakıya xəstəxanaya müayinə və müalicəyə gələn insanl həkim soyub, talayıb, evinə cibi boş yola salır. Artıq həkim qapısını döyüb, içəri daxil olmaqda olan insana xəstə kimi deyil, obyekt kimi baxır. Niyyəti ancaq ondan ibarət olur ki, canı ilə əlləşən bu xəstəni necə soysun. Halbuki, dövlətimiz həkimlərə, tibb bacılarına ən yüksək məvacib ödəyir, imtiyazlar verir. Lakin yenə də gözləri doymur. Həkimlər tanıyıram ki, elmlər doktorudur, professordur xəstə ilə çənə-boğaz olur, həngamə çıxarır, çalışır ki, ondan daha çox pul əldə etsin. Dini kitablarımızda belələri üçün yaxşı deyilib, “vay belələrinin halına”.

# 2030-CU İLDƏ DÜNYANI VƏ ÖLKƏMİZİ NƏ GÖZLƏYİR?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Analitiklər: İqtisadi güc balansı dəyişəcək, neft ucuzlaşacaq, əhali 8,5 milyardı keçəcək, su və ərzaq çatışmazlığı yaranacaq, sənaye istehsalı artacaq...

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Dünyanın nüfuzlu analitikləri mütəmadi olaraq dünyanın gələcək mənzərəsi ilə bağlı təhlillərini hazırlayır. Son dövrlərdə isə iqtisadi və sosial proqnozlar daha çox maraq doğurmağa başlayıb, çünki hazırda dünyada hökm sürən pandemiya və sosial-iqtisadi böhranlar insanları dünyamızın gələcəyi ilə bağlı daha çox düşünməyə məcbur edir. Bu yazıda, əsasən, iqtisadi proqnozlara və təhlillərə üstünlük verəcəyik.***

Hazırkı proqnozlara görə, 2030-cu ildən sonra dünyada sosial-iqtisadi vəziyyət kökündən dəyişəcək. 4-cü sənaye inqilabı istehsalı tamam dəyişəcək, məhsul istehsalı artacaq. Yer əhalisi 8,3 milyarda catacaq. Suya və enerjiyə tələbat təxminən 2 dəfə, qidaya tələbat isə 30% artacaq. Şimali Afrika və Mərkəzi Asiya kimi bəzi regionlar qida və su çatışmazlığı kimi ağır problemlərlə qarşılaşacaq. Alternativ enerjilərə keçidlə bağlı neftə tələbat azaldığından neft ixracından asılı ölkələr çətin vəziyyətə düşəcək. Dünyanın iqtisadi güc balansı əhəmiyyətli şəkildə dəyişəcək.

### 2030: Dünya iqtisadiyyatında güc mərkəzi dəyişəcək

Analitiklərə görə, 10 ildən sonra OPEK-in neftin qiymətlərinə nəzarəti tam pozulacaq ki, bu da hər şeydən göründüyü kimi, neft və qaz ixracından asılı olan iqtisadiyyatlar üçün mənfi nəticələrə səbəb olacaq. Bununla yanaşı, informasiya texnologiyalarının inkişafı iqtisadi məhsuldarlığa geniş təsir göstərməyə başlayacaq.

Hazırkı hegemon ölkələrin qlobal təsiri itəcək. Çin, Hindistan, Rusiya və Braziliya, həmçinin Kolumbiya, İndoneziya, Nigeriya, Cənubi Afrika, Türkiyə kimi regional iqtisadiyyatlara malik ölkələrin dünya iqtisadi sistemində rolu daha da artacaq. Növbəti 10-15 ildə yeni texnologiyaların inkişafı nəticəsində transmilli şirkətlər sürətlə inkişaf edən bazarlara daha çox diqqət verəcək.

Proqnoza görə, 2030-cu ilədək Çin iqtisadiyyatı ABŞ iqtisadiyyatını tamamilə "taxtdan endirəcək". Hindistan da dünya iqtisadiyyatında gücünü xeyli artıracaq. Dünyanın iqtisadi mərkəzi tam olaraq Cənub-Şərqi Asiyaya keçəcək. II Dünya Müharibəsindən qazanclı və varlanmış şəkildə çıxaraq inkişafını sürətləndirən ABŞ-in və Avropanın iqtisadi hakimiyyət dövrü bitir.

Proqnozlara görə, karbohidrogenlər bazarı üçün yeni texnologiyaların istehsalı və alternativ enerji sahələrinin inkişafı neftin ucuzlaşmasına səbəb olacaq ki, nəticədə iqtisadiyyatı neft ixracından asılı olan ölkələr üçün ciddi problemlər yaranacaq.

Analitiklər 4-cü sənaye inqilabının dünya iqtisadiyyatını tamamilə dəyişəcəyini, yeni texnologiyalarla məhsul istehsalının artacağını ehtimal edirlər. Ərzağa və dərmanlara və texnika mallarına tələbat artacaq. Bu səbəbdən texnoloji məhsullar istehsal edən ölkələrin, həmçinin ərzaq və dərman istehsalı çox olan ölkələrin gəlirləri artacaq.

Öz xammalı olmayan ölkələr iqtisadi tənəzzülə məruz qalacaq

Qərb analitikləri Rusiya iqtisadiyyatının gələcəyini o qədər də optimist qiymətləndirmirlər. Lakin rusiyalı ekspertlər başqa fikirdədirlər. Rusiya Strateji Sosial-İqtisadi Araşdırmalar Mərkəzi hesab edir ki, 10-15 il sonra dünyanın iqtisadi cəhətdən ən qüdrətli 5 dövləti arasında Çin, Hindistan, ABŞ, Almaniya ilə birgə Rusiya da olacaq.

"Dünyanın iqtisadi mənzərəsi göstərir ki, ehtiyatları həddən artıq istismar olunmuş Qərb və Uzaq Şərq ölkələri durğunluq dövrü yaşayacaq. Dünya əhalisi artır, təbii ehtiyatlar sürətlə istismar olunur, bir çoxları tükənmək üzrədir. Artıq inkişaf etməkdə olan ölkələr sürətlə sənaye texnologiyalarına yiyələnirlər, öz xammallarını ucuz qiymətə Qərbə satmaq əvəzinə özləri istehsal etməyə başlayırlar. Bu tendensiya artıq təbii ehtiyatları tükənmiş, xammalı ehtiyatı və enerji resursları olmayan iri sənaye dövlətlərinin iqtisadiyyatını zəiflədəcək"- mərkəzin proqnozunda bildirilir.

Analitiklər hesab edir ki, dünyanın ərazisinə görə ən böyük ölkəsi olan Rusiyada nəhəng təbii ehtiyatlar, güclü aqrar sektor, böyük elmi-texniki potensial və sənaye bazası var. Uzaq Şərqdə, Sibirdə və Arktikada mənimsənilməmiş nəhəng mineral ehtiyatlar var. Rusiya dünyanı gözləyən su problemini də yaşamayacaq.





Mərkəzin ekspertləri hesab edir ki, ABŞ və iri Qərbi Avropa dövlətlərinin iqtisadi hegemonluğu 2030-35-ci illərdə tam başa çatacaq. Bu ölkələrin öz təbii ehtiyatları tam bitəcək və xaricdən xammal almaq çətin olacaq. Eyni aqibət Çini, Avropanın bir sıra ölkələrini, Yaponiyanı və Cənubi Koreyanı da gözləyir.

ABŞ-a gəldikdə, analitiklər hesab edirlər ki, bu ölkə 3-cü dünya ölkələrin sərvətlərini istismar etmək və qlobal valyuta-birja əməliyyatları yolu ilə daha çox gəlir əldə edərək istehlaka və komforta öyrəşdiyi üçün tənəzzülə düçar olacaq. Müharibələrə və münaqişələrə son qoyulsa, hərbi-sənaye kompleksi də çökəcək.

### 2030-da sosial-iqtisadi sahədə Azərbaycanı nə gözləyir?

Azərbaycana gəldikdə, növbəti 10 ili dəqiq proqnozlaşdırmaq çətindir, amma bu müddətdə təxmini vəziyyəti təsəvvür etmək olar. Bütövlükdə, növbəti 10 ildə neft sektorundakı hasılatı və təbii qaz satışından əldə ediləcək gəlirləri, eləcə də qeyri-neft sektorunun perspektiv potensialı nəzərə alaraq 2030-cu il üçün təxmini proqnoz hazırlamaq mümkündür.

Bütün hallarda növbəti illərdə iqtisadiyyatın diversifikasiyası sürətlənərsə, yəni qeyri-neft sektoru inkişafı davam edərsə, ciddi problemlər yaranmayacaq. 2030-cu illərdə neftin hasilatının xeyli azalması fonunda gəlirlərin qeyri-neft sektoru hesabına kompensasiya edilməsi nəticəsində Azərbaycanda iqtisadi inkişaf fərqli müstəvidə davam edəcək.

2030-cu ildə vəziyyətin necə olacağını qarşıdakı illərdə iqtisadiyyatın şaxələndirilməsi prosesinin necə aparılacağı müəyyən edəcək. 2030-cu ildə Azərbaycan iqtisadiyyatının indikindən azı 2 dəfə böyük olacağını ehtimal etmək olar, təbii ki, bu, qeyri-neft sektorunun inkişafı hesabına mümkün ola bilər. Kiçik və orta sahibkarlığa dövlət dəstəyi güclənsə, ölkədə ÜDM-in və dolayı yolla dövlət büdcəsinin gəlirləri daha çox artacaq. Buna müvafiq olaraq idxaldan asılılaq azalacaq, ixrac çoxalacaq.

İqtisadçıların ümumi fikrinə görə, qeyri-neft sektorunun inkişafı prosesində klaster yanaşmada əsas perspektivli sahələr yüngül sənaye, xüsusilə qida sənayesi, aqrar sektordur. Ölkələrin təbii sərvətlərinin mövcudluğu əsas deyil, əsas innovativ yanaşma, texnoloji yüklü iqtisadiyyat yaratmaqdır. İnnovativ dəyər yaradan sektorlar dəstəklənməlidir. Ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsi, turizm imkanlarının genişlənməsi də iqtisadi inkişafa töhfə verəcək.

Ümumiyyətlə, hökumətin sosial-iqtisadi inkişaf konsepsiyasına görə, yeni mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

**Elçin Bayramlı**

# "BARSELONA" ALMAN QAPIÇISINI DA SATIŞA ÇIXARIR!



"Barselona" futbol klubu, elə bil Barselonada "bazar açıb". Məsələ bundadır ki, komanda rəhbərliyi bu dəfə qapıçı Mark-Andre ter Ştegeni satmağa hazır olduğunu bildirib və əsas kimi də, onun son oyunlarda yaxşı oynamadığını göstərib.

Xatırladaq ki, İspaniya çempionatının cari mövsümündə 9 oyun keçirən Ter Ştegen 9 qol buraxıb. Qeyd edək ki, "Barselona"nın 55 milyon avro istədiyi qapıçı üçün artıq elə Premyer Liqa komandaları arasında onun xidmətində maraqlı olanlar peyda olub.

*Ağasəf*

# Məşhur aktrisa vəfat etdi



**Kino sənətinin aktrisası və ssenarist Semra Dinçer uzun müddətdir mübarizə apardığı ağciyər xərçənginə rəvac verib. SİA xarici mətbuata istinadən xəbər verir ki, müğənni Haluk Levent Dinçerlə bağlı acı xəbəri sosial media hesabından açıqlayıb.**

**Semra Dinçer 2 il əvvəl tutduğu ağciyər xərçəngi ilə mübarizə aparırkən bu gün günorta saatlarında dünyasını dəyişib. O, 25 iyul 1965-ci ildə Ankarada anadan olub. Dinçer 42 film və serialda rol alıb, bunlardan 7-nin ssenarisini yazıb, son serial olan "İstanbullu Gəlin"də Reyhan Sezgin rolunu canlandırıb. Dinçer "Kuzey Güney" serialındakı çıxışı ilə yadda qalıb.**

**Levent paylaşımında bu sözləri deyib: "Bu, ağciyər xərçəngi idi. 2 il əvvəl müalicə edilib. İki dəfə xeyriyyəçilər tərəfindən ev tutuldu, çoxsaylı əməliyyatlar edildi. Amma olmadı: ( Aktrisa Semra Dinçeri yeni itirdik. Pərəstişkarlarına başsağlığı veririk".**

*Ayşən Vəli*

# Bu il Azərbaycanda uşaqlara ən çox hansı adlar qoyulub?

**Bu ilin on ayı ərzində Azərbaycanda uşaqlara ən çox qoyulan adlar məlum olub. SİA uşaqlara qoyulan adlar arasında ilk onluğu təqdim edir. Belə ki, ötən müddət ərzində oğlan uşaqlarına ən çox verilən ad Əli olub. Bu ad il ərzində 1299 uşağa qoyulub. Beləliklə, yanvar-oktyabr aylarında Əli adı uşaqlara verilən adlar arasında öz populyarlığını qoruyub saxlayıb.**

Bundan əlavə, doğumu qeydə alınan körpələrdən oğlan cinsindən olanlardan 1243-nə Yusif, 1239-na Hüseyn, 1189-na Uğur, 886-na Məhəmməd, 790-na Ömər, 692-nə Murad, 591-nə Raul, 553-nə Tunar və 552-nə isə Ayxan adı verilib. Həmçinin qız uşaqları arasında Zəhra adı birinciliyi qoruyub. Bu il ərzində bu ad 1312 uşağa verilib.

Bundan əlavə, doğumu qeydə alınmış körpələrdən qız cinsi olanlardan 1041-nə Zeynəb, 985-nə Məryəm, 951-nə Aylin, 931-nə Fatimə, 887-nə Mələk, 777-nə Nilay, 767-nə Nuray, 666-na İnci və 598-nə isə Mədinə adı qoyulub. Beləliklə, bu ilin yanvar-oktyabr aylarında uşaqlara ən çox qoyulan adlar Əli və Zəhra olub.



# Təbrik edirik!



**Yunusova Sevgi Seyfur qızını ad günü münasibəti ilə babası Zahid müəllim, habelə bütün əzizləri, doğmaları ürəkdən təbrik edir, ona can sağlığı, sağlamlıq və səadət dolu xoşbəxt ömür arzulayırlar.**

# Yuxunuz şirin olsun deyə...



Gecə qəlyanaltı etmədən əvvəl iki dəfə düşünün, çünki bəzən qidalar yuxu rejimini pozaraq, kabuslara səbəb ola bilər. Bunun qarşısını almaq üçün nələrə diqqət etməliyik?

## Acılı souslar

1992-ci ildə Avstraliyadakı Tasmaniya Universitetində aparılan bir araşdırma nəticəsində məlum olub ki, yatmazdan öncə acılı souslardan istifadə edən insanların yuxuya getmələri pisləşir və onlar kabuslardan əziyyət çəkirlər. Alimlər bunu həmin qidaların bədənin hərarətini dəyişdirə biləcəyi və bunun da xəyalların formalaşmasına təsir göstərməsi ilə izah edirlər.

## Karbohidratlar

Kanadanın Montreal və Edmont universitetlərində çalışan alimlərin apardıqları araşdırmada iştirak edən insanların 31 % -i gecə şirniyyat yedikdən sonra kabuslar və qəribə yuxular gördüklərini təsdiqləyiblər. Alimlərin sözlərinə görə, bunun əsas səbəbi şəkərdir. Buna görə də alimlər yatmadan 5-6 saat əvvəl şirniyyat yeməməyi məsləhət görürlər.

Kolumbiya Universitetinin nəzdində fəaliyyət göstərən kollecin həkim və cərrahlarının apardıqları təhqiqat nəticəsində məlum olub ki, təmizlənmiş (qənd halına salınmış) karbohidratlar yuxusuzluğa səbəb ola bilər.

"Nation News" məlumat verir ki, təhqiqat çərçivəsində mütəxəssislər postmenopauza dövründə olan 50 mindən çox qadının qida rasionunu araşdırıblar. Elmi araşdırmaların nəticələrinə əsasən, şəkər, ağ çörək və düyü qanda şəkərin səviyyəsini artırır və bu hal insanda yuxusuzluq yaradır.

Alimlər izah edirlər ki, qanda şəkərin miqdarını aşağı düşəndə orqanizm insulin ixrac edir və nəticədə orqanizmin adrenalin və kortizolu kənara atmasına gətirir. Bu da öz növbəsində, yuxu pozğunluğuna səbəb olur.

## Qəhvə

Çalışın qəhvə içməyin və ya onu daha az için. Çünki kofein orqanizmdə 12-24 saat ərzində qalır. Yadda saxlayın ki, qəhvə ilə yanaşı, şokolad, kola və çayın da tərkibində kofein var. Əgər siz yuxusuzluğunuzun səbəbini kofeində görürsünüzsə, tərkibində bu maddənin olduğu məhsullardan yatmazdan ən azı 12 saat əvvəl istifadə edin.

## Çipsi və digər yağlı qəlyanaltılar

Kolumbiya Universitetinin və Nyu-Yorkun Düzgün Bəslənmə Mərkəzinin alimləri çipsi və yağla zəngin olan bu tipli digər qidaların yuxu pozğunluğuna və ya kabuslara səbəb ola biləcəyini aşkar ediblər. Onların sözlərinə görə, bu qida növlərində monosodyum glutamat maddəsi mövcuddur.

Yaxşı olar ki, axşam yeməyiniz təzə tərəvəz və ya yağsız ətdən ibarət olsun.

## Qazlı içkilər

Limonad, xüsusilə də tərkibində şəkər və kofein olan içkilər yuxunuz üçün zərərlidir

## Spirtli içkilər

Axşamlar alkoqol qəbul etməyin. Alkoqolun orqanizmə qısamüddətli sakitləşdirici təsir etməsinə və spirtli içkidən sonra insanın daha tez yuxuya getməsinə baxmayaraq, alkoqol dərin yuxu fazasına da təsir edir. Siz spirtli içkinin təsiri qurtarandan sonra dərhal ayılacaqsınız.

*Samirə Tağıyeva*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**